15 noyabr 2024 №84-85 (2150) www.medeniyyet.az

MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

# Dünya Bakıya toplaşıb və biz bütün dünyaya xitab edirik

## "COP29-u boykot etmək istəyənlərə pis xəbər var: bizim 196 ölkədən gəlmiş və qeydiyyatdan keçmiş 72 min iştirakçımız var"

Qonaqlarımızın çoxu Azərbaycana ilk dəfədir ki, səfər edir. Ümid edirəm ki, onların ölkəmizlə daha yaxından tanış olmaq, onun tarixini, ənənələrini və mədəniyyətini öyrənmək imkanı olacaqdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bunu noyabrın 12-də Bakıda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Liderlər Sammitinin açılış mərasimində çıxışı zamanı deyib.

Qeyd edək ki, 11–22 noyabr tarixlərində keçirilən COP29 Azərbaycanın indiyədək ev sahibliyi etdiyi ən irimiqyaslı və mötəbər beynəlxalq tədbirdir. Bu, eyni zamanda, BMT Baş Assamleyasının sessiyasından sonra dünyanın bütün dövlətlərini bir araya gətirən ən böyük platformadır.

COP29-un əsas tədbiri noyabrın 12-13-də keçirilən Liderlər Sammiti olub. Sammitə qatılan dövlət və hökumət başçılarını, nümayəndə heyətlərinin rəhbərlərini Azərbaycan Prezidenti İlham Əliyev və BMT-nin Baş katibi Antonio Quterreş qarşılayıb.

Qarşılanma mərasimindən sonra birgə foto çəkdirilib.

Liderlər Sammitinin açılış mərasimində çıxış edən Prezident İlham Əliyev COP29-a aparan yolda Azərbaycana verdiyi dəstəyə görə BMT-nin Baş katibinə və BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Katibliyinə təşəkkürünü, həmçinin ötən il COP28-in (Dubay) ev sahibi olmuş Birləşmiş Ərəb Əmirliklərinin rəhbərliyinə Bakıda COP29 üçün hazırlıqlarda verdikləri dəstəyə görə minnətdarlığını bildirib.

"Ötən ilin dekabrında təxminən 200 ölkənin yekdil qərarı ilə Azərbaycana COP29-a ev sahibliyi etmək şərəfi verildi. Biz bu qərarı ölkəmizə olan hörmətin əlaməti, beynəlxalq arenada oynadığımız fəal rolun dəyərləndirilməsi kimi görürük. Azərbaycan Şimal ilə Cənub, Qərb ilə Şərqin qovuşduğu ölkədir və bu, təkcə coğrafiya ilə bağlı deyil. Biz müxtəlif beynəlxalq iştirakçılar arasında siyasi, mədəni, enerji, ticari və nəqliyyat körpülərini sala bilərik. Azərbaycanın başladığı meqalayihələr artıq Avrasiyanın enerji və daşımalar yollarını dəyişib və məhsuldar, çoxtərəfli əməkdaşlıq formatının qurulması ilə nəticələnib", – deyə İlham Əliyev bildirib.

Prezident qeyd edib ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin Ermənistan tərəfindən 30 illik işğalına, etnik təmizləməyə və bir milyon azərbaycanlının öz doğma torpaqlarından qovulmasına baxmayaraq, biz özünü təmin edən iqtisadiyyata və müstəqil siyasətə malik güclü ölkəni qura bildik: "Dörd il öncə biz İkinci Qarabağ müharibəsində tarixi Qələbəni qeyd etdik. Bir il əvvəl biz BMT-nin Nizamnaməsinə, beynəlxalq hüquqa və BMT-nin




Təhlükəsizlik Şurasının 30 il kağız üzərində qalmış qətnamələrinə uyğun olaraq, suverenliyimizi tam bərpa etdik. Biz həmin qətnamələri özümüz icra etdik, beynəlxalq hüququ, ədaləti bərpa etdik və Ermənistanın işğalına son qoyduq".

### Mədəniyyətlərarası dialoqda fəal rol oynayırıq

COP29-un sədri kimi Azərbaycanın inkişaf etmiş və inkişaf edən ölkələr, Qlobal Cənub və Qlobal Şimal arasında ümumi anlaşmaya nail olmaq üçün əlindən gələni edəcəyini deyən İlham Əliyev diqqətə çatdırıb ki, Azərbaycan 120 ölkənin yekdil qərarı ilə dörd il ərzində (2019–2023) BMT-dən sonra ikinci böyük beynəlxalq qurum olan Qoşulmama Hərəkatına uğurla sədrlik edib: "Azərbaycan, həmçinin təxminən 60 ölkəni birləşdirən İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür. Avropa İttifaqının 10 üzvü ilə Azərbaycan sazişlər imzalayıb və Strateji tərəfdaşlıq haqqında bəyannamələr qəbul edib. Bütün bunlar bizə düşünməyə imkan verir ki, biz iqlim dəyişmələri məsələsində fərqli mühüm iştirakçılar arasında körpülərin salınmasında çox faydalı və yardımçı ola bilərik. Azərbaycan çoxtərəfliliyin tərəfdarıdır.

Eyni zamanda, biz mədəniyyətlərarası dialoqda fəal rol oynayırıq. BMT-nin Sivilizasiyalar Alyansı ilə birlikdə biz iki ildən bir Bakıda Mədəniyyətlərarası Forum təşkil edirik. Multikulturalizm bizim dövlət siyasətimizdir və həyat tərzimizdir. Azərbaycan xalqı etnik və dini mənsubiyyətindən asılı olmayaraq sülh və razılıq şəraitində bir ailə kimi yaşayır".

*davamı səh. 2-də*

# COP29-un mədəniyyət gündəmi

Noyabrın 11-də Bakıda işə başlayan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı 29-cu sessiyasının (COP29) gündəmində mədəniyyət və ətraf mühit məsələləri də var.

Sessiya çərçivəsində noyabrın 15-də mədəniyyətə əsaslanan iqlim fəaliyyəti üzrə Mədəniyyət Nazirlərinin 2-ci Yüksək Səviyyəli Görüşü keçiriləcək.

Birləşmiş Ərəb Əmirlikləri, Braziliya və Azərbaycanın mədəniyyət nazirliklərinin təşkilatçılığı ilə gerçəkləşən görüşdə rəsmilər, ekspert və qeyri-hökumət təşkilatlarının nümayəndələri – ümumilikdə 120-yə yaxın qonağın iştirakı gözlənilir. Tədbirdə yüksək səviyyəli dialoq mədəniyyəti, o cümlədən incəsənət və mədəni irsin iqlim fəaliyyəti gündəliyinə daxil edilməsi üçün beynəlxalq konsensusa nail olunması məqsədilə səylər göstəriləcək.

Noyabrın 16-da BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası (UNFCCC) çərçivəsində Mədəniyyətə Əsaslanan İqlim Fəaliyyəti üzrə Dostlar Qrupu və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə ölkəmizin irəli sürdüyü "İqlim üçün mədəniyyət" (C4C) təşəbbüsünə həsr olunan sessiya keçiriləcək. Sessiyada mədəni yanaşmaların iqlimlə bağlı məsələləri təşviq etməsi, inklüzivliyin artırılması kimi mövzular müzakirə olunacaq.

Həmin gün Azərbaycanın "İqlim üçün mədəniyyət" (C4C) təşəbbüsünün təqdimatı keçiriləcək. C4C təşəbbüsü mədəniyyəti iqlim müzakirələrinin mərkəzinə çəkərək qlobal səviyyədə mənalı davranış dəyişikliklərinə ilham verməyi və mədəniyyətin davamlı gələcək üçün güclü bir vasitə olduğunu göstərməyi hədəfləyir.

# Prezidentlər tarixi-mədəni irsimizlə tanış olublar

COP29-da iştirak etmək üçün ölkəmizdə səfərdə olan Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini Qobustan Milli Tarix-Bədii Qoruğunu ziyarət edib.

Qoruğun muzeyində nümayiş etdirilən eksponatlara və açıq səma altındakı qayaüstü təsvirlərə tamaşa edən qonağa Qobustan abidələri, ərazidə aparılan elmi-tədqiqat işlərinin nəticələri barədə ətraflı məlumat verilib. Qeyd olunub ki, Qobustan abidələri 2007-ci ildə UNESCO-nun Dünya İrs Siyahısına daxil edilib.

Azərbaycana sayca dördüncü səfəri olsa da, ilk dəfə Qobustan qoruğunu ziyarət etdiyini bildirən Peter Pelleqrini Qobustan qayaüstü təsvirlərini heyrətamiz adlandırıb, abidələrlə tanışlıqdan və göstərilən qonaqpərvərlikdən məmnunluqlarını dilə gətirib.

Slovakiya Respublikasının Prezidenti qoruğun xatirə kitabına xoş təəssüratını yazıb. Səfərdə Slovakiyanın ölkəmizdəki səfiri Milan Layçak da iştirak edib.

***





COP29 çərçivəsində ölkəmizdə səfərdə olan Nepal Prezidenti Ramçandra Paudel və onu müşayiət edən nümayəndə heyəti isə Azərbaycan Milli Xalça Muzeyini ziyarət edib.

Muzeyin direktoru Əminə Məlikova qonaqlara qədim və zəngin tarixi-mədəni irsimiz olan xalça sənəti, muzeyin kolleksiyaları, nadir sənət nümunələri barədə məlumat verib.

Prezident Ramçandra Paudel və nümayəndə heyətinin üzvləri muzeyin xatirə kitabına ürək sözlərini yazıblar. Ölkə başçısına "Azərbaycan Milli Xalça Muzeyi" kitabı hədiyyə edilib.

***

COP29-da iştirak etmək üçün Azərbaycana səfərə gəlmiş Monqolustan Prezidenti Uxnaaqiyn Xurelsux Milli Azərbaycan Tarixi Muzeyində olub.

Muzeyin direktoru akademik Nailə Vəlixanlı qonaqlarla görüşdə Azərbaycan-Monqolustan mədəni-tarixi əlaqələri haqqında söhbət açıb.

Monqolustan rəhbəri muzeydə Azərbaycanın qədim mədəni irsi və tarixi ilə tanış olub. Muzeyin yeni ekspozisiyasında nümayiş olunan, Mingəçevirdə arxeoloji qazıntılar zamanı tapılmış monqol xalatı və dövrün nadir numizmatik nümunələri onun diqqətini xüsusilə cəlb edib.

***

COP29-da iştirak edən Monteneqro Prezidenti Yakov Milatoviç noyabrın 14-də Heydər Əliyev Mərkəzində olub. Ali qonağa dünya memarlığının nadir incilərindən sayılan Heydər Əliyev Mərkəzi haqqında geniş məlumat verilib. "Azərbaycan inciləri" sərgisi ilə də tanış olan Yakov Milatoviçə bu sərgidə ölkəmizin tükənməz təbii sərvətləri, çoxəsrlik tarixi, mədəni irsi ilə bağlı nadir eksponatların nümayiş etdirildiyi bildirilib.

# "Azərbaycan. Təbiətin sehrində"

COP29 çərçivəsində noyabrın 13-də Heydər Əliyev Fondunun Azərbaycana həsr olunan yeni nəşri təqdim edilib.




"Azərbaycan. Təbiətin sehrində" (Azerbaijan. Inspired by Nature) kitabının ideya müəllifi Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, layihə rəhbəri Prezidentin köməkçisi Anar Ələkbərovdur.

Nəşrdə Azərbaycanın füsunkar təbiəti, flora və faunasına dair fotoşəkillər, məlumatlar yer alıb. Kitab oxucuları Azərbaycanın ecazkar təbiəti ilə tanış etməklə yanaşı, bu zənginliyin əhəmiyyətini, onun qorunub saxlanılmasının vacibliyini gündəmə gətirir.

2020-ci ildən start götürən layihə çərçivəsində çəkilən yüzlərlə foto arasında unikal kadrlarla yanaşı, nadir heyvan, quş və bitki növlərini də görmək olar. Layihə Azərbaycan təbiətinin müxtəlifliyini təsvir edərək ölkənin bütün regionlarını, milli parklar və qoruqlarını əhatə edib. Layihə üzrə videoçəkilişlər aparılıb, videoçarxlar və sənədli film hazırlanıb.

*davamı səh. 3-də*

# Əcnəbi qonaqlar aşıq musiqisinə qulaq asıblar



Noyabrın 14-də Beynəlxalq Muğam Mərkəzində aşıq musiqisindən ibarət konsert proqramı təqdim olundu.

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə COP29-la bağlı hazırlanan mədəni proqram çərçivəsində keçirilən konsertdə əvvəlcə Azərbaycan Milli Konservatoriyasının dosenti sənətşünaslıq üzrə fəlsəfə doktoru Mübariz Əliyev aşıq sənətinin tarixi, inkişaf mərhələləri, müasir vəziyyəti və tədrisi barədə danışdı.

Sonra Mübariz Əliyev və tələbələrinin ifasında konsert proqramı təqdim edildi. Proqramda görkəmli bəstəkar Süleyman Ələsgərovun "Aşıqvari" əsəri, eləcə də "Hicran Kərəmisi", "Koroğlu" kompozisiyası, "Badamı şikəstəsi", "Baş müxəmməs" kimi aşıq havaları səsləndirildi.

Əcnəbi qonaqların da izlədiyi musiqi axşamı maraqla qarşılandı.

# COP29-a "Oyanış" töhfəsi



İncəsənət xadimləri daha həssas olduqları üçün dünyanın ekoloji vəziyyəti, hər hansı dəyişikliyə uğraması, ruh vəziyyəti özünü bədii təcəssümdə mütləq büruzə verir. Bu gün bu qədər neqativlə üz-üzə qalan bəşər övladının halının qənaətbəxş dərəcədən çox uzaq olmasının hansı nəticələrə gətiribçıxardığını xüsusi vurğulamağa ehtiyac yoxdur.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyası – COP29-la bağlı Bakıya minlərlə əcnəbi qonaq gəlib. Bu qlobal əhəmiyyətli tədbir çərçivəsində qonaqların asudə vaxtının səmərəli təşkili məqsədilə Mədəniyyət Nazirliyi tərəfindən maraqlı bədii proqramlar da hazırlanıb.

Noyabrın 13-də Heydər Əliyev Sarayında təqdim edilən "Oyanış" adlı konsert-tamaşa da bunlardan biridir. Akademik Opera və Balet Teatrının təqdim etdiyi proqramı COP29-la bağlı Bakıya gəlmiş müxtəlif ölkələrin rəsmiləri də daxil olmaqla geniş tamaşaçı auditoriyası böyük maraqla izlədi.

*davamı səh. 3-də*

Lənkəran səhnəsində "Şəhid bayrağı"



*səh. 3*




Azad yurdlarda Zəfər bayramı

*səh. 4*

# Dünya Bakıya toplaşıb və biz bütün dünyaya xitab edirik




*əvvəli səh. 1-də*

Prezident nitqində Azərbaycanın Yaşıl gündəliyi haqqında da danışıb. Bildirib ki, bərpaolunan enerjidə texniki potensialımız quruda 135 giqavat və dənizdə isə 157 giqavat təşkil edir. Ötən il BƏƏ-nin Masdar şirkəti bir regionumuzda 230 meqavatlıq Günəş enerji stansiyasının açılışını etdi. Səudiyyə Ərəbistanının "Acwa Power" şirkəti isə hazırda 240 meqavatlıq külək enerjisi stansiyasını tikir.

Böyük Britaniyanın bp şirkəti ilə 240 meqavatlıq Günəş enerjisi stansiyasının erməni işğalından azad edilmiş Cəbrayıl rayonunda tikilməsi ilə bağlı sazişin (COP29 çərçivəsində imzalanıb – red.) icrası sayəsində dünyanın ən iri neft və qaz terminallarından biri olan Səngəçal terminalında dekarbonlaşma təmin ediləcək.

Azərbaycanda 2030-cu ilə qədər təxminən 6 giqavatlıq Günəş, külək və hidroenerji stansiyalarının tikilməsi planlaşdırılır: "Yaşıl gündəliyimiz, həmçinin Azərbaycanın müxtəlif bölgələrini əhatə edir. Beləliklə, Azərbaycanın Naxçıvan, Qarabağ və Şərqi Zəngəzur regionları yaşıl enerji zonaları elan edilib və bu, ərazimizin, demək olar ki, dörddəbir hissəsidir".

## Neftlə bərabər yalan istehsal edənlərə mesaj

Dövlətimizin başçısı xatırladıb ki, XIX əsrdə qlobal neft hasilatının yarısı Azərbaycanın payına düşürdü: "Əgər o vaxt bəzi Qərb siyasətçiləri və media bizi neft dövləti adlandırsaydı, bu, bəlkə də anlaşılan olardı. Lakin əgər onlar indi, yəni bu gün bizi neft dövləti adlandırırlarsa, bu, ədalətsizlikdir və yalnız siyasi mədəniyyət və biliklərin çatışmamasından xəbər verir. Bu gün Azərbaycan qlobal neft hasilatında 0,7 faiz, qlobal qaz hasilatında isə 0,9 faiz paya malikdir. Amma dünyada bir nömrəli neft və qaz hasilatçısı olan, Azərbaycandan 30 qat artıq neft hasil edən ölkənin yalan xəbər mediası bizi neft dövləti adlandırır.

Yaxşı olardı ki, ən azı onlar özlərinə və Azərbaycandan 10 dəfə artıq neft hasil edən özlərinin qonşuluğundakı ölkəyə baxsınlar. Azərbaycanın qlobal qaz atılmalarındakı payı cəmi 0,1 faizdir. Mən bu rəqəmləri auditoriyamızın diqqətinə çatdırmalıyam, çünki Azərbaycan COP29-a ev sahibi seçildikdən dərhal sonra biz əlaqələndirilmiş və yaxşıca təşkil olunmuş qarayaxma və böhtan kampaniyasının hədəfinə çevrildik.

Hər bir təbii sərvət – istər neft, qaz, külək, günəş, qızıl, gümüş və mis – bunların hamısı təbii sərvətlərdir. Ölkələr onların olmasına görə günahlandırılmalı və bazarda onlara tələbatın olması səbəbindən onları bazara çıxardıqlarına görə suçlanmalı deyillər. İnsanlara onlar lazımdır. Bir sözlə, mesajım belədir. COP29-un sədri kimi, əlbəttə, biz yaşıl keçidin güclü carçısı olacağıq".

Prezident Azərbaycanı Avropa ölkələri ilə enerji əməkdaşlığında ittiham edənlərə də cavab verib: "İki il əvvəl Azərbaycan və Avropa Komissiyası enerji sahəsində strateji tərəfdaşlıq bəyannaməsinə imza atdılar. Lakin bu, bizim ideyamız deyildi. Bu, Avropa Komissiyasının təklifi idi. Onlar bizdən yardım xahiş etdilər. Biz razılaşdıq. Əgər yardımımıza ehtiyac varsa, biz hər zaman kömək etməyə hazırıq. İki il əvvəl həmin bəyannaməni imzalayanda qazımızı alan ölkələrin, yəni Avropa ölkələrinin sayı iki idi. İndi isə səkkiz ölkə alır. Azərbaycan qazına çıxışı olan on ölkədən səkkizi Avropada yerləşir. Avropa Komissiyası, həmçinin bizdən xahiş edib ki, biz qaz təchizatını 2027-ci ilə qədər iki dəfə artıraq. Bu, Avropa Komissiyasının sədri və mənim tərəfimdən iki il öncə Bakıda imzalanmış bəyannamədə əks olunub. Əfsuslar olsun ki, ikili standartlar, digər ölkələrə dərslər vermək adəti və siyasi riyakarlıq bəzi qərb ölkələrindəki bir sıra siyasətçilər, dövlət nəzarətində olan QHT-lər, yalan xəbər mediası üçün fəaliyyət metoduna çevrilib".

İlham Əliyev sonda COP29-un boykotu üçün dəridən-qabıqdan çıxanlara da pis xəbər verib: "Mənim sonuncu mesajım təxminən bir ildir ki, boykotu təşviq edən dairələrədir. Onlar əllərində olan bütün alətlərdən istifadə etdilər ki, Bakıda COP29-u boykot kampaniyası başlansın. Onlara pis xəbər var: bizim 196 ölkədən gəlmiş və qeydiyyatdan keçmiş 72 min iştirakçımız var. Onların sırasında 80 prezident, vitse-prezident və baş nazirlər var. Beləliklə, dünya Bakıya toplaşıb və biz bütün dünyaya deyirik: Azərbaycana xoş gəlmisiniz!".

## Verilən sözə əməl etməyin vaxtı çatıb

Sonra çıxış edən BMT-nin Baş katibi Antonio Quterreş qlobal iqlim dəyişikliyinin fəsadlarının bütün ölkələri təhdid etdiyini deyib: "Burada hər hansı bir ölkə istisna deyil. Biz görürük ki, karbonlar və emissiyalar ortalama olaraq aşağı düşməsə, adaptasiya tədbirləri tətbiq olunmasa, bütün iqtisadiyyatlar daha böyük ziyana uğrayacaq. Amma bu kontekstdə hələ də ümidimiz qalır. COP28-də siz hər biriniz öz üzərinizə karbohidrogen resurslarından yayınma və xalis sıfıra yaxınlaşma öhdəliyi götürmüsünüz. İqlimə uyğunlaşma tədbirlərini təşviq etməyə və eyni zamanda, iqtisadi baxımdan iqlim dəyişmələri planları və milli təklifləri qəbul etməyə söz verdiniz. İndi isə bu sözə əməl etməyin vaxtı çatıb... Eyni zamanda, burada üç prioritetə fokuslanmaq istərdim. İlk növbədə, emissiyaların azaldılması. Qlobal temperaturun azaldılması və 2,5 Selsiyə çatdırılması üçün qlobal emissiyanı hər il 9 faiz azaltmalıyıq. Bu, 2030-cu ilə qədər 43 faiz azalmalıdır. Təəssüf ki, 2019-cu ilin baza xəttinə əsasən bu emissiyalar hələ də artmağa davam edir. Qlobal karbohidrogen resursları 30 faiz azalmalıdır. Eyni zamanda, ölkə daxilində enerji keçidi dayanıqlı iqlim məqsədlərinə, iqlim dəyişikliyi tədbirlərinə uyğun olmalıdır ki, lazımi investisiyaları təşviq edək. Bütün bunlar yerli şərait nəzərə alınaraq ortaq və eyni zamanda, paylaşılmış məsuliyyət əsasında reallaşmalıdır. Amma əlbəttə ki, hər bir ölkə öz işini görməlidir və G20 bu istiqamətdə lider olmalıdır. Onlar ən böyük emissiya edən ölkələrdir. BMT bu səylərə dəstək göstərməyə tam hazırdır.



İkincisi, siz öz xalqlarınızı, insanlarınızı iqlim dəyişmələrinin və iqlim böhranlarının fəsadlarından müdafiə etməlisiniz. Eyni zamanda, adaptasiya ehtiyacları ilə maliyyə arasında olan boşluq 2030-cu ilədək milyardlarla dollara bərabər və ya 300 milyarddan yuxarı olacaqdır. Çatışmayan bu vəsait hər hansı hesabatda qeyd olunan rəqəm deyil. Bu, həyat itkiləri, infrastrukturun dağıdılması deməkdir. Bu cür maliyyə vədlərini icra etmək lazımdır. 2025-ci ilə qədər ən azı 40 milyard dollar vəsait toplanmalıdır. Adaptasiya və investisiya iqtisadiyyatları dəyişə və Dayanıqlı İnkişaf Məqsədləri ətrafında formalaşa bilər.

Eyni zamanda, çarpaz şəkildə olan bütün sektorlara fundamental baxsaq, üçüncü prioritet məhz maliyyədir. İnkişaf edən ölkələr, əlbəttə ki, bir sıra problemlərlə üzləşir. Çatışmayan dövlət infrastrukturu vəsaiti, eyni zamanda, iqlim dəyişmələri, borclanma və digər sahələrdə böyük çətinliklər mövcuddur. COP29 yeni fərq yaratmalıdır və inkişaf edən ölkələr Bakını əliboş tərk etməməlidir. Əminəm ki, buna birlikdə nail olacağıq...

Böyük nəticələr böyük dəyişikliklər tələb edir. Beləliklə, bütün dövlət nümayəndələrinə müraciət etmək istəyirəm ki, artıq itirməyə vaxtımız qalmayıb. İnsanlar, dövlətlər iqlim dəyişmələrinə qarşı mübarizə üçün vəsait ayırmalıdırlar. Əks halda, bu, bəşəriyyətə baha başa gələcək".

***

Daha sonra çıxış edən BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) sabiq icraçı direktoru, Malayziyanın paytaxtı Kuala Lumpurun meri xanım Maimuna Mohd Şərif dahi Azərbaycan şairi Nizami Gəncəvidən sitat gətirib: "Azərbaycanlı şair Nizami Gəncəvi öz şeirlərində söyləyib ki, müxtəlif çətin çağırış dövrlərində imkanlar tapmaq lazımdır. Bu imkanlar məhz sülh ilə gələcək və təbiətlə sülh yaratmalıyıq. Bu səbəbdən də bütün üzv dövlətlərdən və təşkilatlardan multilateral yanaşmağı və BMT-yə dəstək göstərməyi xahiş edirəm. COP29-da daha dəqiq tədbirlər, vaxtlar və son tarixlər ilə bir yerdə planetimizi qorumalıyıq. İndiki və gələcək nəsillərə daha sağlam bir planet miras qoymalıyıq".

Açılış mərasimində NASA astronavtları xanım Sunita Vilyams və Nik Heyqin beynəlxalq kosmik stansiyadan videomüraciəti nümayiş olunub.

Mərasim mədəni proqramla başa çatıb.

Sonra Liderlər Sammitinin ilk plenar iclası olub. İki gün ərzində sammitdə 80-dən çox ölkənin rəhbər şəxsləri çıxış edib.

# COP29-da Qarabağdakı quruculuğa töhfə



Azərbaycan Prezidenti İlham Əliyev noyabrın 13-də COP29-da iştirak edən Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə görüşüb.

Şavkat Mirziyoyev COP29-un uğurla keçirilməsi münasibətilə təbriklərini çatdıraraq bu tədbirin çox yüksək səviyyədə təşkil olunduğunu vurğulayıb. Qeyd edib ki, Özbəkistan Azərbaycana dost, qardaş və müttəfiq ölkə olaraq buna sevinir. İkitərəfli münasibətlərimizin inkişafında tarixi bir dövrün olduğunu vurğulayan Özbəkistan Prezidenti ölkələrimiz arasında bu il imzalanan müttəfiqlik münasibətləri haqqında müqaviləni qeyd edib.

Prezident İlham Əliyev COP29-da iştirak etdiyinə görə Özbəkistan dövlətinin başçısına təşəkkürünü bildirib. Dövlətimizin başçısı Xankəndi şəhərində tikiş fabrikinin inşası ilə bağlı layihəyə görə Özbəkistan rəhbərinə minnətdarlığını bildirib.

Söhbət zamanı Bakıda Özbəkistan Evi, Özbəkistanda isə Azərbaycan Evi layihələrinin icrasından məmnunluq ifadə olunub. Ölkəmizin Özbəkistanda ticarət nümayəndəliyinin açılması, təhsil, maşınqayırma, inşaat, mədən, əczaçılıq, pambıqçılıq, turizm sahələrində layihələrlə bağlı fikir mübadiləsi aparılıb.

Sonra Azərbaycan və Özbəkistan prezidentlərinin iştirakı ilə Xankəndi şəhərində tikiş fabrikinin videobağlantı vasitəsilə açılış mərasimi olub.

Prezident İlham Əliyev qeyd edib ki, bu fabrik birliyimizin daha bir rəmzidir: "Bizim özbək dostlarımız qısa müddətdə Xankəndidə yüzlərlə insanın çalışacağı və təbii ki, mütləq əksəriyyəti qadınlardan ibarət gözəl müəssisənin yaradılmasına kömək göstərdilər. Bu, məşğulluqdur, bu, istehsaldır, bu, Qarabağın inkişafıdır. Özbək qardaşlarımız isə yenə burada birincidirlər. Füzulidə məktəb tikməkdə bizə ilk yardımçı oldular, işğaldan azad edilmiş ərazilərdə belə böyük bir müəssisə yaratmaqda bizə ilk köməyi göstərdilər".

Qeyd edək ki, fabrikin inşası Azərbaycan və Özbəkistan arasında iqtisadi və investisiya əməkdaşlığının dərinləşdirilməsinə dair iki ölkə prezidentlərinin tapşırıqlarına əsasən həyata keçirilib. Layihənin investisiya dəyəri 11 milyon manat təşkil edir. Müəssisə həm yerli, həm də Özbəkistan xammalı əsasında fəaliyyət göstərəcək. Ümumilikdə burada 800 iş yeri yaradılacaq. Layihənin ilkin mərhələsi üzrə 250 nəfər işlə təmin olunub.

# Dünyanın böyük hissəsini cəngəllik sayanlardan nə gözləmək olar?

Noyabrın 13-də Bakıda COP29 çərçivəsində inkişaf etməkdə olan kiçik ada dövlətlərinin sammiti keçirilib. Azərbaycan Prezidenti İlham Əliyev tədbirdə çıxış edib.

Prezident qeyd edib ki, Azərbaycan COP29-un ev sahibi olduqdan sonra inkişaf edən kiçik ada dövlətləri ilə münasibətlərimiz yeni, daha yüksək səviyyəyə qalxıb. Kiçik ada dövlətlərinin səsi qlobal arenada eşidilməlidir: "Mən inkişaf etmiş bütün ölkələrə, xüsusən də müstəmləkə keçmişi olan ölkələrə müraciət edirəm ki, kiçik ada dövlətlərinə maddi və texniki dəstək göstərsinlər ki, onlar ölkələrini iqlim dəyişmələrinin fəsadlarından qoruya bilsinlər. İqlim dəyişmələri hər bir ölkəyə, o cümlədən Azərbaycana təsir göstərir. Görürük ki, Xəzər dənizi ilbəil daha da dayazlaşır. Çaylarımızda daha az su, dağlarımızda daha az qar var. Əfsuslar ki, keçmişdə heç vaxt görmədiyimiz daşqınlar və kəskin yağışlar bu gün reallıqdır. Bir sözlə, hər bir ölkə təsirə məruz qalır, lakin kiçik ada dövlətləri üçün bu ekzistensial təhlükədir.

Azərbaycan kiçik ada dövlətlərinə özünün birmənalı dəstəyini nümayiş etdirir. Biz fəlakət qarşısında zəif olan bir sıra ölkələrə qasırğa, zəlzələ və daşqınların təsirini azaltmaq üçün yardım göstərmişik. Biz, həmçinin su təchizatı, qida təhlükəsizliyi və mədəni irsin bərpası layihələrinə



dəstək vermişik. Ondan çox kiçik ada dövləti Azərbaycan universitetlərində təhsil almaq üçün tələbə təqaüdü proqramımızdan yararlanıb. Qoşulmama Hərəkatında dördillik sədrliyimiz dövründə biz 80-dən artıq ölkəyə, o cümlədən 20 kiçik ada dövlətinə maliyyə və humanitar yardım göstərmişik. Millətlər Birliyinin kiçik ada dövlətlərindəki birgə layihələrini dəstəkləmək üçün 10 milyon ABŞ dolları məbləğində vəsait ayırırıq...".

Dövlətimizin başçısı çıxışında beynəlxalq gündəlikdə mühüm məsələlərdən birinə – neokolonializm və iqlim dəyişmələrinə də toxunub. Qeyd edib ki, Fransa və Niderlandın xüsusən də Karib dənizi və Sakit Okean regionundakı dırnaqarası dəniz əraziləri iqlim dəyişmələrinin ən ciddi təsirinə məruz qalanlar sırasındadır. Həmin icmaların səsi bir çox hallarda onların metropoliyalarındakı rejimləri tərəfindən susdurulur.

Yeni Kaledoniya, Fransa Polineziyası, Mayot, Vallis və Futuna, Korsika, Reunion, Qvadelupa, Martinika, Fransa Qvianası, Sen-Pyer və Mikelon, Sent-Mert və Sent-Varfolomey kimi Fransa müstəmləkələrinin xalqları, eləcə də Niderlandın Aruba, Kurasao, Sent-Maarten, Boneyr, Sent-Yefstaxiy və Saba kimi müstəmləkələrinin xalqları XXI əsrdə də müstəmləkə hakimiyyətindən əziyyət çəkirlər. 1966–1996-cı illər ərzində Fransa Polineziyası Fransanın apardığı 193 nüvə sınağı səbəbindən ətraf mühitin ciddi pozulması ilə üzləşib. Fransa orada torpaq və suyun kəskin dərəcədə zəhərlənməsi və radiasiyasına görə məsuliyyət daşıyır. Prezident Makronun rejimi Yeni Kaledoniyada kanakların builki legitim etiraz aksiyasında 13 nəfərin həyatına son qoyub, 169 nəfər yaralanıb.

Prezident qeyd edib ki, bütün bunlara rəğmən Fransa nə Avropa Komissiyası, nə Avropa Parlamenti, nə də ki, Avropa Şurasının Parlament Assambleyası tərəfindən pislənildi: "Bu, siyasi riyakarlıqdır. Siyasi korrupsiya rəmzinə çevrilmiş iki təsisat – Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası günahsız insanların qətlinə görə Prezident Makronun hökuməti ilə məsuliyyəti bölüşür. Əgər Avropanın əsas diplomatı Cozep Borrell Avropanı bağ, dünyanın qalan hissəsini isə cəngəllik adlandırırsa, onda Avropa Parlamenti ilə Avropa Şurası Parlament Assambleyasından daha nə gözləmək olar?! Əgər biz cəngəllikiksə, onda bizdən kənar durun və işlərimizə qarışmayın. Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi kiçik ada dövlətlərinə dəstək verib, COP29-un sədri kimi onları dəstəkləyəcək və gələcəkdə dostlarımızı dəstəkləməkdə davam edəcək".

# Azərbaycanın mədəni irsi COP29-da təbliğ olunur

11–22 noyabr tarixlərində Bakıda keçirilən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ölkəmizin qlobal miqyasda ətraf mühit məsələlərinə verdiyi əhəmiyyətin göstəricisidir.

Tədbir eyni zamanda Azərbaycanın qədim və zəngin tarixi-mədəni irsinin təbliği baxımından əlamətdardır.

Bu günlər paytaxtımızın ən böyük kütləvi tədbir məkanı olan Olimpiya Stadionunda gerçəkləşən COP29 çərçivəsində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə silsilə mədəni tədbir və təqdimatlar keçirilir.




Tədbirin gerçəkləşdiyi məkanlarda əsrlərlə yaşı olan unikal xalça və digər toxuculuq nümunələrimiz, təsviri və dekorativ sənət örnəkləri, milli geyimlər və sənətkarlıq məmulatları nümayiş olunur. Azərbaycan təsviri sənətinin görkəmli nümayəndələri tərəfindən yaradılmış və ölkəmizin əsrarəngiz təbiətini, zəngin florasını, faunasını əks etdirən əl işləri xüsusilə maraq doğurur.

# “Gənclər iqlim fəaliyyətlərinin ön cəbhəsində”

Noyabrın 12-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində Yaşıl Zonada “Gənclər iqlim fəaliyyətlərinin ön cəbhəsində” mövzusunda konfrans təşkil olunub.

Konfransda Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva, Qırğız Respublikasının birinci xanımı Aygül Japarova, Özbəkistanın birinci xanımı Ziroatxon Mirziyoyeva, Türkiyənin birinci xanımı Əminə Ərdoğan, İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) baş direktoru Salim bin Məhəmməd əl-Malik, BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının (UNECE) icraçı katibi Tatyana Molçan, BMT-nin Uşaq Fondunun (UNICEF) Avropa və Mərkəzi Asiya üzrə regional direktoru Regina De Dominikis iştirak ediblər.

Tədbir Mərkəzi Asiya və türkdilli dövlətlərin iqlim dəyişikliyinə qarşı mübarizəyə verdiyi önəmi beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq və gəncləri iqlim gündəliyinə cəlb etmək məqsədilə təşkil edilib.

Özbəkistan, Qırğızıstan və Türkiyənin birinci xanımları konfransda çıxış ediblər.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva konfransda çıxış edərək bildirib ki, panelin məqsədi onun adından bəllidir. Son tədqiqatlara görə, dünya gənclərinin 60 faizdən çoxu iqlim dəyişmələrini təxirəsalınmaz məsələ hesab edir.




Sıfır Tullantı Fondunun yaradılmasında təşəbbüs göstərmiş və ətraf mühitin, eləcə də mədəni irsin qorunmasına yönələn layihələrə töhfə verən Türkiyənin birinci xanımına, iqlim gündəliyində uşaq və gənclərin iştirakının təşviqinə görə Özbəkistanın və Qırğızıstanın birinci xanımlarına minnətdarlığını bildirən Mehriban Əliyeva qeyd edib ki, qlobal iqlim dəyişikliyinin fəsadları Azərbaycandan da yan keçmir. Biz çay sularının, Xəzər dənizinin səviyyəsinin azalmasını müşahidə edirik və su qıtlığı təhlükəsi ilə üzləşirik.

Hərçənd qlobal istixana tullantılarının cəmi 0,1 faizi Azərbaycanın payına düşür: “Biz havaya tullantıların azaldılması və təmiz enerjiyə keçidin həyata keçirilməsi kimi milli hədəflərimizə doğru gedirik. Bərpaolunan enerji sahəsində əldə edilən nailiyyətlərin cari tempi ilə biz 2027-ci ilə qədər quraşdırılan güclərimizin 32 faizə çatacağını, 2030-cu ilə qədər 30 faizlik azalma kimi ilkin hədəfə üç il əvvəl nail olacağımızı gözləyirik. Biz, həmçinin Ermənistanın işğalından azad olunmuş Qarabağ və Şərqi Zəngəzur regionlarında, o cümlədən Naxçıvan Muxtar Respublikasında 2050-ci ilə qədər “xalis sıfır atılmalar zonası”nın yaradılmasına diqqət yetiririk. Yaşıl enerjinin istehsalı və ixracı Azərbaycanın enerji strategiyasında prioritet təşkil edir”.

Mehriban Əliyeva çıxışında onu da vurğulayıb ki, COP29-a ev sahibliyi edən ölkə kimi Azərbaycan ətraf mühit məsələlərindən xeyli uzaq olan mülahizələr hesabına ədalətsiz hücum dalğası, yalan hekayətlər və ikili standartlar ilə üzləşib. Azərbaycan COP29-a ev sahibliyi etmək öhdəliyini üzərinə götürməklə Qlobal Cənub və Qlobal Şimal, eləcə də inkişaf etmiş və inkişaf edən ölkələr arasında körpülər salmağa çalışır. Bununla belə, bəzi hallarda dəstək vermək və konstruktiv dialoq aparmaq əvəzinə, biz çoxsaylı Qərb mətbuatında böhtan və qarayaxma kampaniyalarının hədəfinə çevrilmişik.

“Əslində, bəs bunun arxasında dayanan nədir? Bu cür çirkin kampaniyanın sponsorları hansı məqsədləri güdürlər? Əslində, biz cavabı bilirik... Riyakarlıq, həmçinin müxtəlif ölkələr tərəfindən öz iqlim öhdəliklərinə necə yanaşmasında özünü büruzə verir.

Əsrlər boyu çirklənmənin əsas mənbəyi və sərvətlərin məsuliyyətsiz istehlakçısı olmuş inkişaf etmiş ölkələr hazırda sərt hakim rolunda çıxış edir. Onlar digər ölkələrdən transformasiyanı tələb edir, lakin bununla belə, maliyyə və ya texnoloji baxımdan yardım etməyə tələsmirlər. Azərbaycan manipulyasiya və təzyiq deyil, səmərəli fəaliyyət, real həll variantları və ədalətli əməkdaşlıq arzulayan ölkədir. Biz platformamızdan elə istifadə etmək istəyirik ki, qlobal koalisiya yaransın və orada hər ölkənin – böyük və ya kiçik, inkişaf etmiş və ya inkişaf edən ölkənin mövqeyi, haqqı ədalətli şəkildə qəbul edilsin... Yalnız ədalətli əməkdaşlıq və real tədbirlərə hazırlıq bizi uğura aparacaq”, – deyə o əlavə edib.

Konfransda daha sonra Azərbaycan, Macarıstan, Qazaxıstan, Qırğızıstan, Türkiyə və Özbəkistanın gənc ekofəallarının təqdimatları olub.

2024–2030-cu illər üçün nəzərdə tutulan “Mədəni inkişafın təşviqi və uşaqların, gənclərin iqlim gündəliyinə cəlb edilməsi üzrə Beynəlxalq Strategiya”nın imzalanması keçirilib.

Konfransdan sonra ali qonaqlar Yaşıl Zonada Heydər Əliyev Fondunun və Türkiyənin Sıfır Tullantı Fondunun birgə pavilyonu – COP29-da Həmrəylik Mərkəzini ziyarət ediblər.

Pavilyona ziyarət zamanı birinci xanımlar Şamaxı rayonunda gənclərin və könüllülərin iştirakı ilə keçirilən ağacəkmə aksiyasını bağlantı vasitəsilə izləyiblər.

# “Azərbaycan. Təbiətin sehrində”

## “Hamıya Vətənimizi gəzməyə daha çox vaxt ayırmağı arzu edirəm”

əvvəli səh. 1-də

Tədbirdə çıxış edən Leyla Əliyeva deyib: “Dünyada təbiət qədər dəyərli heç nə yoxdur. Biz hava ilə nəfəs alırıq. Susuz üç gün də yaşaya bilmərik. Torpaqdan, ağaclardan enerji alırıq, onunla qidalanırıq. Təəssüf ki, gün ərzində insan bunun haqqında çox az düşünür. İnanıram ki, bu kitabda toplanmış şəkillər Azərbaycanın gözəlliklərini təqdim edəcək, insanlara təbiəti sevməyi və qorumağı bir daha xatırladacaq. Atalarımız demişkən: “Gəzmәsən, bilməzsən”. Hamıya Vətənimizi gəzməyə daha çox vaxt ayırmağı arzu edirəm. Mən bu möhtəşəm iş üçün bütün komandaya təşəkkürümü bildirmək istəyirəm və Lerikdə birlikdə keçirdiyimiz günləri heç zaman unutmayacağam. Bu kitab bizi təbiəti sevməyə və qorumağa çağırır. Təbiət bizə həyat bəxş edir, biz də onu sevməyi öyrənək”.

Layihənin fotoqraflarından Aleksey Lyokin çəkilişlər zamanı ölkəmizin bütün guşələrinə səfər etdiklərini, bölgələrin nadir təbiəti ilə tanış olduqlarını bildirib. Qeyd olunub ki, çəkilişlər təbiətin bütün gözəlliyini maksimum dərəcədə göstərmək üçün ilin bütün fəsillərində aparılıb:




“İşğaldan azad olunmuş ərazilərdə – Qarabağda və Şərqi Zəngəzurda çəkilişlər zamanı qeyri-adi hisslər yaşadıq. Qarabağ və Şərqi Zəngəzurun gözəlliyi göz oxşayır. Kəlbəcərdə yerləşən İstisu bulağı və Şuşadakı Çətir şəlaləsi möhtəşəmdir. Kəlbəcərdəki bazalt qayaları diqqəti cəlb edir”, – deyən A.Lyokin dünyanın ən qədim yaşayış məskənlərindən sayılan Azıx mağarasında aparılan çəkilişləri də vurğulayıb.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva “Azərbaycan. Təbiətin sehrində” nəşrinin ilk nüsxələrini təqdimatda iştirak edən ICESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malikə və İşa Xeyriyyə Fondunun təsisçisi, məşhur hindistanlı yoqin Sadhquruya (Caqqi Vasudev) təqdim edib.

Qeyd edək ki, kitab Azərbaycan və ingilis dillərində hazırlanıb. Nəşrə daxil olan fotolardan ibarət sərgi və lentə alınan sənədli filmin təqdimatı da nəzərdə tutulub.

# Azərbaycan və Rusiya mədəniyyət nazirlərinin görüşü

Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli noyabrın 12-də COP29-la bağlı ölkəmizdə səfərdə olan Rusiyanın mədəniyyət naziri Olqa Lyubimova ilə görüşüb.



Adil Kərimli ölkəmizdə keçirilən bu mötəbər tədbirdə iştirak etdiyinə görə həmkarına təşəkkürünü bildirib.

Azərbaycanla Rusiya arasında mədəni əlaqələrin səviyyəsini yüksək qiymətləndirən nazir xüsusilə son illərdə bu sahədə əməkdaşlığın daha da möhkəmləndiyini diqqətə çatdırıb. Qeyd olunub ki, iki ölkənin bədii kollektivlərinin qarşılıqlı qastrol səfərlərinin təşkili, incəsənət təhsili sahəsində təcrübə mübadiləsi, sərgi, müsabiqə və festivallarda mütəmadi iştirak əlaqələrimizin dolğun mənzərəsini yaradır.

Rusiyanın mədəniyyət naziri Olqa Lyubimova Azərbaycanın COP29 kimi mötəbər bir tədbirə yüksək səviyyədə ev sahibliyi etdiyini deyib, bu münasibətlə Bakıda olmasından məmnunluğunu dilə gətirib. Qonaq nazir də iki ölkənin mədəni əlaqələrinin perspektivlərini yüksək dəyərləndirib.

Adil Kərimli COP29-un mədəniyyət və ətraf mühit məsələləri ilə bağlı gündəmi barədə məlumat verib. Qeyd edib ki, tədbir çərçivəsində mədəniyyətə əsaslanan iqlim fəaliyyəti üzrə Mədəniyyət Nazirlərinin 2-ci Yüksək Səviyyəli Görüşü keçiriləcək. Görüşün məqsədi incəsənət və mədəni irsin iqlim fəaliyyəti gündəliyinə daxil edilməsi üçün beynəlxalq konsensusa nail olunmasıdır.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası (UNFCCC) çərçivəsində Mədəniyyətə Əsaslanan İqlim Fəaliyyəti üzrə Dostlar Qrupu və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə ölkəmizin irəli sürdüyü “İqlim üçün mədəniyyət” (C4C) təşəbbüsünə həsr olunan sessiya və bu təşəbbüsün təqdimatı da keçiriləcək.

Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# COP29-a “Oyanış” töhfəsi



əvvəli səh. 1-də

Hələ proqram başlamazdan əvvəl səhnədə quraşdırılmış ekrandakı videoinstalyasiya – torpağın “qəlbinin” istisi olan alov dilimləri – Odlar Yurdu Azərbaycanın obrazlı rəmzi tamaşaçıları müvafiq ovqata köklədi.

“Oyanış” konsert-kompozisiyasının məram-məzmunu nədir? Kompozisiyanın quruluşçu rejissoru, ssenari müəllifi və geyim tərtibatçısı Françesko Bandi bu barədə belə deyir: “Oyanış” – “Əbədi məşəl” insanın təbiətlə vəhdətini bərpa edən və bəşər varlığını həyat üçün zəruri olan ilkin elementlərə diqqətlə nəzər salmağa təşviq edən ayindir. Yaşadığımız dövrdə hava, su, torpaq və od kimi vacib elementlər yeni düşüncələrə ilham verən mövzulara çevrilib. Buna görə də şou suyu həyatla, havanı zəkanın gücü ilə, torpağı şüurlu varlıqla, atəşi isə sivilizasiyanın işığı ilə əlaqələndirən başlanğıc



kimi anlaşılır. Çətin təkamül yollarında itmiş bəşəriyyət hər bir təbiət elementinin mahiyyətində təbiətin bədii əsərini bizə göstərmək üçün uzaq zamanlardan gələn zəllik baxanın gözündədir. Bu səbəbdən rəqs şövqü və ruhlandırıcı bahar arzusunda, hər şeyi yeniləmək üçün bəşəriyyətə verilən yeni bir işığın müjdəçisi kimi kahinlərin müdrikliyi ilə ziyarət edilir. Bütün bunlarla birləşən kosmik yazışmaların dinamikası daxilində kişilik və qadınlıq dialektikası Xeyirə doğru kollektiv səy kimi həyatı yeniləyən bəşəriyyətin xalçasını toxuyur. Xalça saysız-hesabsız düyünlərin, ilmələrin birləşməsinin nəticəsi olduğu kimi, biz də xalqlar arasında kollektiv iradənin məziyyətləri ilə əldə edilən birliyin gözəlliyini təsəvvür edirik. Gö-

konsert-kompozisiya boyunca əbədi məşəl alovlanır...”.

Konsert-kompozisiyanın quruluş müəllifinin bəhs etdiyi əbədi məşələri əllərində tutaraq xoreoqrafik hərəkətlər edən rəqqasələr səhnəyə ilk olaraq tamaşaçı zalından çıxdılar – bərabərlik, həmrəylik əlaməti olaraq.

Azərbaycan sənətçiləri ilə yanaşı, əcnəbi incəsənət ustalarının da iştirakı ilə hazırlanan şou-kompozisiyanın dirijoru Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının musiqi rəhbəri Əməkdar artist Əyyub Quliyev, xormeysteri Əməkdar incəsənət xadimi Sevil Hacıyevadır. Konsert-kompozisiyada Turan qızı obrazında Cusi Di Bassi, Məşəl keşişi obrazında Antonio Bonura, Qız qalası şahzadələri obrazlarında Afaq Abbasova, Polina Pravdina, Naməlum şahzadə obrazında Ramil Qasımov, solo partiya ifalarında Adil Axundov və Səma Həmzəyeva, həmçinin solo tar – İbrahim Babayev, solo muğam – Fərqanə Qasımova və Teyyub Aslanov, solo balaban – Anar Vəlizadə çıxış etdilər.

**Samirə Behbudqızı**

# “Killerdən teleqram” festivaldan qəlib

Azərbaycan Dövlət Akademik Musiqili Teatrı Qazaxıstanın Şimkənd şəhərində keçirilən Mərkəzi Asiya Ölkələrinin IX Beynəlxalq Teatr Festivalında uğurla təmsil olunub. Festivalda Əməkdar artist Şövqi Hüseynovun iştirakı ilə gənc rejissor Zaur Əliyevin quruluşunda hazırlanan “Killerdən teleqram” (müəllif Pərviz Seyidli) monotamaşası nümayiş olunub.



Teatrın festivala qatılan heyəti – direktor müavini sənətşünaslıq üzrə fəlsəfə doktoru Vəfa Mühacirova, Əməkdar artist Şövqi Hüseynov, monotamaşanın quruluşçu rejissoru Zaur Əliyev, musiqi tərtibatçısı Məmmədov Məmmədov, işıqçı Nicat Həmidov səhnə işinin böyük rəğbətlə qarşılandığını vurğulayıblar.

Əməkdar artist Şövqi Hüseynov: “Qazaxıstanın Şimkənd şəhərində ilk dəfə olsam da, təəssüratım tükənməzdir, çünki özümü orada yad kimi hiss etmədim, insanların doğma münasibəti hər birimizi məmnun etdi”.

Vəfa Mühacirova: “Düşünürəm ki, bu cür qarşılıqlı mədəni əlaqələr ölkələri bir-birinə daha da yaxınlaşdırır. Qazaxıstanda gördüyümüz doğma münasibət Azərbaycana sevginin təcəssümüdür. Ümidvaram ki, bundan sonra da sıx əlaqələrimizi uğurla davam etdirəcəyik”.

# “Şəhid bayrağı” səhnədə

Zəfərimizin 4-cü ildönümü münasibətilə hazırlanan səhnə nümunələri sırasına biri də əlavə olunub.

Lənkəran Dövlət Dram Teatrında yerli müəllif Qafar Cəfərlinin “Şəhid bayrağı” pyesi əsasında hazırlanan tamaşa teatrsevərlərin ixtiyarına verilib.

Noyabrın 7-də premyerası gerçəkləşən səhnə əsərinin quruluşçu rejissoru Emil Əskərov, quruluşçu rəssamı Tərlan Sadıqov, musiqi tərtibatçısı Vüqar Fərəcov, rejissor assistenti Nuranə Nəcəfovadır.

Hərbi-vətənpərvərlik mövzulu birhissəli tamaşada rolları Əməkdar artist Sucəddin Mirzəyev, Prezident mükafatçısı Aynur Əhmədova, aktyorlar Miraslan Ağayev, Allahverən Babayev, Təranə Fərəcova, Buludxan Buludov, Saleh Əzimzadə, Məleykə Cəfərova, Zeynal Məmmədli ifa edirlər.

# “Xeyir xəbər” Naxçıvana da gedib çıxıb

Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Milli Dram Teatrında Əməkdar incəsənət xadimi, yazıçı-dramaturq Əli Əmirlinin “Xeyir xəbər” dramına yeni səhnə həyatı verilib.



Tamaşa teatrın direktor əvəzi, baş rejissor Qabil Əkbərovun quruluşunda ərsəyə gəlib. Səhnə tərtibatçısı Naxçıvan MR-in Əməkdar rəssamı Səyyad Bayramov, musiqi tərtibatçısı İbrahim Əliyevdir.

44 günlük Vətən müharibəsində qəhrəman oğulların şücaətindən bəhs edən tamaşada əsas rolları Əməkdar artistlər Vidadi Rəcəbli, Nazlı Hüseynquliyeva, gənc aktyorlar İsmayıl Mirzəcanov və Ləman Vəliyeva oynayırlar.

Kulminasiyasında özünün azad və abad dövrünü yaşayan Qarabağ, Şuşa təsvir olunan səhnə işi tamaşaçılar tərəfindən rəğbətlə qarşılanıb.

№84-85 (2150)
15 noyabr 2024
www.medeniyyet.az

# “Canı və qanı ilə tarix yazanlara borcluyuq”

Qobustan Milli Tarix-Bədii Qoruğunda 44 günlük Vətən müharibəsində şanlı Qələbəmizin 4-cü ildönümü münasibətilə bayram tədbiri keçirilib.



Tədbirdə iştirak edən mədəniyyət naziri Adil Kərimli şəhid ailələri və qazilərlə görüşüb. Nazir çıxışında qeyd edib ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin müdrik və uzaqgörən siyasəti və şanlı Ordumuzun qəhrəmanlığı sayəsində Azərbaycanın ərazi bütövlüyü bərpa olunub. Noyabrın 8-i müasir Azərbaycan tarixinə qızıl hərflərlə yazılıb. “Bu gün üçrəngli bayrağımızın əzəmətlə dalğalandığı işğaldan azad olunmuş torpaqlarımıza böyük qayıdış davam edir. Həmin ərazilərdə tarixi abidələrimiz bərpa olunur. Biz torpaqlarımızın bütövlüyü və ölkəmizin suverenliyi uğrunda canlarını fəda edən, öz canı və qanı ilə tarix yazan şəhidlərimizə, qazilərimizə borcluyuq”, – deyə Adil Kərimli əlavə edib.

Bayram münasibətilə şəhid ailələri və qaziləri təbrik edən nazir onlarla xatirə şəkilləri çəkdirib.

Tədbir iştirakçıları əl işlərindən ibarət sərgi ilə də tanış olublar.

# “Zəfərin izi ilə”

## Gənc rəssamın fərdi sərgisi

Salyan regional “ASAN Xidmət” Mərkəzinin təşkilatçılığı və Salyan Dövlət Rəsm Qalereyasının dəstəyi ilə gənc rəssam Nurlanə Qafarovanın əl işlərindən ibarət “Zəfərin izi ilə” adlı sərgi açılıb.



Mərasimdə Vətən müharibəsi iştirakçıları, qazilər, hərbçilər, sənət adamları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Bildirilib ki, Nurlanə Qafarova rəsm müsabiqələrində iştirak edib, dəfələrlə qalib olub. O, sonralar bədii yaradıcılığını maketişləmə, memarlıq və heykəltaraşlıq üzrə inkişaf etdirib. Şanlı Zəfərimizlə bağlı işlər onun yaradıcılığında xüsusi yer tutur. Əsərlərində qəhrəmanlarımız, tarixi abidələrimiz, vətənimizin müxtəlif guşələri təsvir olunur.

Çıxışlardan sonra sərgiyə baxış olub. Rəssam əsərləri haqqında məlumat verib. Müəllifin “Şuşanın dağları”, “Gövhər ağa məscidi”, “Xudafərin”, “Topçu Vüsal”, “Zəfər yolu”, “Xarıbülbül”, “Döyüş postu”, “Bayraqdar” və digər əsərləri sərgi iştirakçıları tərəfindən maraqla qarşılanıb.

# Balakəndə tanınmış tar ustasının xatirəsi anılıb

Balakən Rayon İcra Hakimiyyəti və Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının birgə təşkilatçılığı ilə görkəmli tar ustası Aydın Tağıyevin (1934–1992) 90 illik yubileyinə həsr olunan “Tarixdən bu günümüzə süzülən tar sənəti” adlı konfrans-konsert keçirilib.



Balakən şəhər Uşaq incəsənət məktəbində keçirilən tədbirdə çıxış edən icra başçısı İslam Rzayev tar sənətinin inkişafında əvəzsiz xidmətləri ilə tanınan, alətlərin təkmilləşdirilməsində özünəməxsus rol oynamış, görkəmli musiqiçilərlə sıx əlaqədə olan simli alətlərin ustası Aydın Tağıyevin həyat və yaradıcılığı haqqında məlumat verib. Qeyd olunub ki, Aydın Tağıyev ötən əsrin 60-cı illərin ortasından başlayaraq təqribən 25 il davamlı şəkildə tar aləti hazırlamaqla yalnız Azərbaycanda deyil, keçmiş SSRİ-də, yaxın xarici ölkələrdə tanınıb.

Görkəmli tarzən, Xalq artisti Ramiz Quliyev Aydın Tağıyevin milli musiqi alətimiz olan tarın milliliyinin, Azərbaycana məxsusluğunun qorunub saxlanılmasındakı xidmətlərindən söz açıb.

Digər çıxış edənlər Aydın Tağıyevin irsinin araşdırılması, haqqında məlumatların toplanılması, eyni zamanda yaratdığı musiqi alətlərinin öyrənilməsinin və yaradıcılığının gənc nəslə çatdırılmasının əhəmiyyətini vurğulayıblar.

Bədii hissədə musiqi nömrələri səsləndirilib.

# Xaçmazdakı Şəxsiyyətlər Muzeyində yenidənqurma işləri

Xaçmaz şəhərində açıq səma altında yaradılan Şəxsiyyətlər Muzeyində yenidənqurma işlərinə başlanılıb.



Əraziyə tamet daşları döşənəcək, yeni işıqlandırma sistemi qurulacaq, dekorativ ağaclar əkiləcək. Bundan başqa, parkın ərazisindən keçən, Heydər Əliyev və Nəriman Nərimanov küçələrini birləşdirən yolun yenidən açılaraq sakinlərin istifadəsinə verilməsi nəzərdə tutulub.

Xaçmaz sakinlərinin və şəhərə gələn qonaqların maraq göstərdiyi məkanlardan olan Şəxsiyyətlər Muzeyi 2006-cı ildə yaradılıb. 2013-cü ildə sahəsi genişləndirilərək 2 hektara çatdırılıb. Ərazidə yerləşən Tarix-Diyarşünaslıq Muzeyinin ön tərəfinə Azərbaycanın tanınmış dahi şəxsiyyətlərinin – Məhsəti Gəncəvi, Nizami Gəncəvi, Nəsrəddin Tusi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Xurşidbanu Natəvan və Hüseyn Cavidin heykəlləri qoyulub.

# Azad yurdlarda Zəfər bayramı

44 günlük Vətən müharibəsində şanlı Zəfərin dördüncü ildönümü ölkəmizdə böyük coşqu ilə qeyd olundu. Xalqımıza əbədi qürur yaşadan Qələbəmiz azad yurdlara qayıdan sakinlər üçün xüsusilə əlamətdar olub. Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə paytaxtın bədii kollektivləri və ifaçılar maraqlı konsert proqramları təqdim ediblər.

***





Mədəniyyət Nazirliyi, Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin təşkilatçılığı ilə Füzuli şəhərində keçirilən tədbirdə rəsmilər, yerli sakinləri, şəhid ailələri, qazilər və başqa şəxslər iştirak ediblər. Ağacəkmə aksiyası ilə başlanan tədbirin açılış mərasimində Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov qonaqları salamlayaraq Zəfər Günü münasibətilə təbriklərini çatdırıb.






Tədbirin rəsmi hissəsindən sonra Uluqbəy adına Füzuli şəhər 1 nömrəli tam orta məktəbdə konsert proqramı təqdim olunub.

Tamaşaçılar əvvəlcə Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi şagirdlərinin əl işlərindən ibarət sərgi və “Vətənimin Zəfəri” adlı konserti izləyiblər.

Sonra Beynəlxalq Muğam Mərkəzinin solistləri geniş proqramla çıxış ediblər. Solistlər vətənpərvərlik ruhunda və bayram əhvallı muğam, təsnif və xalq mahnılarımızı səsləndiriblər.

***

Cəbrayıl şəhərində təşkil olunan konsertdən öncə tədbir iştirakçıları Zəfər Günü ilə bağlı videoçarxı izləyiblər.

F.Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının (bədii rəhbər Xalq artisti Ağaverdi Paşayev, instrumental heyətin musiqi rəhbəri Mahir Ordubadi) müşayiəti ilə solistlər – Muğam Televiziya Müsabiqəsinin laureatı Vəfa Vəzirova, Əməkdar artist Çinarə Heydərova (qanun), respublika və beynəlxalq müsabiqələr laureatları İdris Tağıyev (zurna, balaban), Taleh Yahyayev, Nurlana Abdullayeva və Nurlan Əzizbəyli, “Misri” ansamblı, Taleh Hüseynli, Rəvan Qaçayev və aşıq Ruhiyyə Qarabağlı ifalarını təqdim ediblər.

Proqramda Azərbaycan bəstəkarlarının vətənpərvərlik ruhlu əsərləri və xalq mahnıları səsləndirilib.

***

Laçın şəhərində təşkil olunan bayram tədbirində Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi, Laçın rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti və “Laçın Abadlıq Xidməti” ASC-nin əməkdaşları, şəhid ailələri, qazilər, hərbçilər rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri və sakinlər iştirak ediblər.






Bayraq meydanından başlayan tədbirin rəsmi hissəsindən sonra hərbi orkestrin müşayiəti ilə “Lacinema” kino mərkəzinə doğru bayraqla yürüş keçirilib. Tədbir kino mərkəzində davam edib.

Bayram konsertində Əməkdar artist Elza Seyidcahan, Beynəlxalq Muğam Mərkəzinin solistləri, xanəndələr Elgiz Əliyev, Könül Xəlilzadə, Cahangir Cahangirov adına xorun kollektivi, beynəlxalq müsabiqələr laureatı Nazxanım Dadaşova, istedadlı pianoçu və gənc ifaçılar, laçınlı xanəndələr və aşıqlar çıxış ediblər. 2 saylı Laçın şəhər tam orta məktəbinin şagirdləri də milli rəqslər və bədii qiraətləri ilə proqrama rəng qatıblar.

Sonra Azərbaycanın Milli Qəhrəmanı Natiq Qasımova həsr olunmuş “Oğul” sənədli filmi nümayiş etdirilib.

***

Zəngilan rayonunun Ağalı kəndində gerçəkləşən bayram şənliyində kənd sakinləri, bölgədə fəaliyyət göstərən müxtəlif qurumların əməkdaşları, hərbçilər və onların ailə üzvləri iştirak ediblər.

Sonra Beynəlxalq Muğam Mərkəzi solistlərinin ifasında rəngarəng konsert proqramı təqdim olunub. Zəfər soraqlı musiqi nömrələrinin səsləndirildiyi konsert alqışlarla qarşılanıb.

***

Mədəniyyət paytaxtımız, bu il doğma sakinlərinə qoynunda yer verən Şuşa şəhərində də Zəfər Günü böyük təntənə ilə gerçəkləşib.

8 noyabrda eyni zamanda Şuşa Şəhəri Gününü qeyd edən sakinlər üçün, sözün əsl mənasında, bayram bayrama qarışıb.

Çünki dörd il öncə, Vətən müharibəsinin bu günü müzəffər Ordumuzun misli görünməmiş qəhrəmanlığı sayəsində qala-şəhərimiz düşməndən qurtulmuşdu. Şuşa zəfəri ilə, əslində, müharibənin də taleyi həll olunmuşdu...

Şuşadakı bayram konsertində M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının solistləri və Azərbaycan Dövlət Rəqs Ansamblının təqdim etdiyi maraqlı konsert proqramı doğma yurda qayıdışın sevinci içərisində olan şuşalıların yaddaşında silinməz iz qoyub.

***

Zəfər soraqlı tədbirlərin daha bir ünvanı Xankəndi şəhəri olub. Azərbaycan Ordusunun 19-20 sentyabr 2023-cü il tarixində Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror əməliyyatı ilə düşməndən azad olunan Xankəndi bu gün yeni növrağını yaşayır.

Burada təşkil olunan bayram mərasimi də böyük coşqu ilə qarşılanıb. Azərbaycan Dövlət Akademik Filarmoniyasının solistləri, Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının instrumental heyəti və solistləri maraqlı proqram təqdim ediblər. Bayram şöləni tamaşaçılara unudulmaz anlar yaşadıb.

Azad eldə böyük sevgi və qürurla gerçəkləşən bayram konsertlərinin sonunda möhtəşəm atəşfəşanlıq olub.

# “Bayraq mənim iftixarım”

Üçrəngli bayrağımız 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə təsdiq edilib. Azərbaycan Respublikası Prezidentinin 2009-cu il noyabrın 17-də imzaladığı sərəncamla noyabrın 9-u Azərbaycanın Dövlət Bayrağı Günü kimi təsis olunub. Əlamətdar gün münasibətilə bölgələrdə də silsilə tədbirlər keçirilib.

***



Tovuz rayon Aşıq Əkbər Cəfərov adına Mədəniyyət Mərkəzi, Tovuz şəhər Aşıq Əsəd Rzayev adına Uşaq musiqi məktəbi, Hüseyn Bozalqanlı adına Azərbaycan Aşıq Sənəti Dövlət Muzeyi və Tovuz Dövlət Rəsm Qalereyasının birgə təşkilatçılığı ilə “Şücaətinə vurğunam, Ana yurdum!” adlı tədbir keçirilib.



***

Cəlilabad rayon Şabanlı kənd Mədəniyyət evində keçirilən tədbirdə qeyd edilib ki, suverenliyimizin rəmzi, qürur qaynağımız olan üçrəngli bayrağımız bu gün uzun illər düşmən tapdağı altında qalan torpaqlarımızda dalğalanır. Sonda şagirdlərin ifasında vətənpərvərlik mövzusunda şeirlər səsləndirilib.

***

Astara rayon Mərkəzi Kitabxanasının Oxuculara xidmət şöbəsinin təşkilatçılığı ilə “Bayraq mənim iftixarım” mövzusunda tədbir keçirilib.



Bildirilib ki, üçrəngli bayrağımız dövlətimizin suverenliyinin rəmzidir. Bayraq Azərbaycanın hər bir vətəndaşının fəxr və qürur mənbəyidir. Sonda şagirdlər vətənsevərlik ruhlu şeirləri bədii qiraət ediblər.

***

Gənclərin İnkişaf və Karyera Mərkəzi Lənkəran-Astara regional nümayəndəliyinin Lerik bölməsi və Lerik Rayon Heydər Əliyev Mərkəzinin birgə əməkdaşlığı ilə Lerik rayon Bayraq Muzeyinə gənclərin ziyarəti təşkil olunub.

Ziyarət zamanı gənclərə Azərbaycan bayrağının tarixi, rənglərinin və simvollarının mənaları haqqında ətraflı məlumat verilib.

# Yerlərdən qısa xəbərlər



Laçın rayon Ərdəşəvi kənd Uşaq musiqi məktəbinin (müvəqqəti Abşeron rayonunda yerləşir) şagirdləri Azərbaycan Gənclər İttifaqının təşkilatçılığı ilə keçirilən “Payız əfsanələri – 2024” adlı müsabiqədə uğurla iştirak ediblər. Qarmon ixtisası üzrə Ömər Kərimli Qran-pri, tar ixtisası üzrə Ənvər Əsədov və Ülvü Həsənli I, qarmon ixtisası üzrə Ramil Ağayev III yerə layiq görülüblər. Şəkər Əkbərova (fortepiano) fəal iştirakçı kimi mükafatlandırılıb.

***



Hacıqabulda “Mənim qəhrəman şəhidim” adlı məqalə müsabiqəsinin yekun mərhələsi keçirilib. Hacıqabul rayon Heydər Əliyev Mərkəzi və rayon Təhsil sektorunun birgə təşkilatçılığı ilə gerçəkləşən müsabiqədə 19 məktəbli iştirak edib. Müsabiqənin məqsədi gənc və yeniyetmələrə vətənpərvərlik ruhunun aşılanması, şəhidlərin həyatı və onların müharibədə göstərdikləri şücaətlərin çatdırılmasıdır. Qaliblər rayon Heydər Əliyev Mərkəzi tərəfindən diplom və hədiyyələrlə təltif edilib.

***



Masallı rayon Mərkəzi Kitabxanasında görkəmli şair Abbas Səhhətin (1874–1918) anadan olmasının 150 illiyi ilə əlaqədar tədbir keçirilib. Qeyd olunub ki, “Vətənimdir” adlı şeiri ilə Azərbaycan poeziyasına öz möhürünü vuran Abbas Səhhətin çoxşaxəli yaradıcılığına “Əhmədin cəsarəti”, “Şair, muza və şəhərli” poemaları, “Kasıblıq eyib deyil”, “Neft fontanı” komediyaları, Azərbaycan dilinin 3 illik tədrisi üçün dərslik və digər qiymətli əsərlər daxildir. Abbas Səhhət “Ana və bala”, “Ata və oğul”, “Yay”, “Ayı və şir”, “Quşlar” və onlarla başqa təmsil və təbdillərin müəllifidir.

**Hazırladı: N.Məmmədli**

# Zəfər Günü konsertində “Qarabağnamə”



## Simfonik ballada ilk dəfə səslənib

Bəstəkar Faiq Sücəddinovun “Qarabağnamə” simfonik balladası (librettо müəllifi akademik Rafael Hüseynov) 8 Noyabr – Zəfər Günü Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında keçirilən konsert proqramında ilk dəfə səsləndirilib.

Konserti izləyənlər arasında Milli Məclis sədrinin müavini Rafael Hüseynov, mədəniyyət naziri Adil Kərimli, digər rəsmilər, mədəniyyət xadimləri, ictimaiyyət nümayəndələri olub.

Öncə akademik Rafael Hüseynov çıxış edərək tariximizin parlaq səhifələrindən olan 44 günlük Vətən müharibəsi və şanlı Zəfərimizin əhəmiyyətindən danışıb. Qeyd edib ki, bu bayram təkcə Qarabağ müharibəsində Zəfərin rəmzi deyil, həm də Azərbaycan xalqının birliyini və qətiyyətini təcəssüm etdirir. Biz təkcə hərbi münaqişədə deyil, millətin ləyaqəti və bütövlüyü uğrunda savaşda qalib gəldik.

Sonra söz musiqiyə verilib.

Konsertdə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri (bədii rəhbər və baş dirijor Əməkdar artist Fuad İbrahimov), Azərbaycan Dövlət Xor Kapellası (bədii rəhbər Xalq artisti Gülbacı İmanova) və solist Əməkdar artist Ramil Qasımov (vokal) çıxış edib.

Proqramda F.Əmirovun “Azərbaycan kapriççiosu”, F.Sücəddinovun “Qarabağnamə” simfonik balladası, O.Zülfüqarovun “Şənlən, mənim xalqım!”, Y.Şəfəqin “Zəfər valsı”, S.Rəhimovanın “Zəfər nidası” simfonik poeması, Niyazinin “Türk marşı” və C.Quliyevin “Əsgər marşı” əsərləri yer alıb.

Konsertdən sonra Xalq artisti Faiq Sücəddinov təəssüratını jurnalistlərlə bölüşüb: “Hər bir azərbaycanlı kimi, mənim üçün də bu bayram çox əzizdir. İki il əvvəl “Zəfər” simfonik poemasını yazmışam, Heydər Əliyev Sarayında səsləndirilib. Əsəri Akademik Opera və Balet Teatrının simfonik orkestri və xoru ifa edib, solist Xalq artisti Samir Cəfərov olub. Bu gün yeni əsərim “Qarabağnamə” filarmoniyada ilk dəfə səsləndirildi. Xor və simfonik orkestrin müşayiəti ilə Ramil Qasımov ifa etdi. Bu bizim üçün ən böyük bayramdır. Hər bir yaradıcı insan anlayır ki, Vətən müqəddəsdir, bölünməzdir. Bəstəkar kimi mənim də həyatım, bütün yaradıcılığım Azərbaycanla qırılmaz şəkildə bağlıdır. 42 ildir ki, əsərlərim ifa olunur, Vətəni tərənnüm edir”.

Dirijor Fuad İbrahimov deyib: “Təxminən 30 il doğma şəhərin həsrətini yaşamış bir şuşalı kimi qürur hissləri keçirirəm. 2020-ci ilin bu günündə, Prezidentin “Şuşa, sən azadsan!” sözlərini heç vaxt unutmayacağam. Bu əlamətdar günə həsr olunan konsertə qısa müddətdə hazırlaşmağı bacardıq. Dövlət Simfonik Orkestrinin iş qrafiki həmişə sıx olur. Orkestrin peşəkarlığı bu gün göz qabağında idi. Bu qədər qısa müddətdə proqram hazırlayıb yüksək səviyyədə ifa etmək mənim üçün bədii rəhbər kimi qürur, sevinc və şərəfdir”.

# Nyu-Yorkda Azərbaycan xalq mahnılarına həsr olunmuş müsabiqənin qala-konserti

Xəbər verdiyimiz kimi, ABŞ-də yaşayan azərbaycanlı pianoçu, musiqişünas, professor Nərgiz Əliyarovanın rəhbərlik etdiyi Milli Musiqi və Qlobal Mədəniyyət Cəmiyyəti (National Music & Global Culture Society) tərəfindən təşkil olunan ənənəvi beynəlxalq bəstəkarlıq müsabiqəsi bu il dördüncü dəfə keçirilib.



Müsabiqənin qalibləri sentyabrın 18-də Azərbaycanın Milli Musiqi Günündə elan edilmiş, sentyabrın 28-də isə Bakıdakı Kamera və Orqan Musiqisi Zalında Üzeyir Hacıbəyli XVI Beynəlxalq Musiqi Festivalı çərçivəsində qalib olan əsərlərin premyerası olmuşdu.

Bu günlərdə Nyu-Yorkdakı Linkoln Mərkəzinin Bruno Valter zalında IV Beynəlxalq Bəstəkarlar Müsabiqəsinin qala-konserti baş tutub.

Konsertdən əvvəl müsabiqənin təşkilat komitəsinin rəhbəri Nərgiz Əliyarova çıxış edərək layihəyə verdiyi dəstəyə görə Azərbaycan Respublikasının Diaspora İş üzrə Dövlət Komitəsinə təşəkkürünü bildirib.

Münsiflər heyətinin sədri, Juilyar Məktəbi Bəstəkarlıq şöbəsinin müdiri Melinda Vaqner müsabiqədə seçilən əsərlərdən danışıb. Diqqətə çatdırıb ki, müsabiqənin qalibi amerikalı bəstəkar Kian Ravaei olub. Ona birinci dərəcəli diplom təqdim edilib.

Qeyd edək ki, müsabiqədə 2-ci yeri Ceyhun Allahverdiyev (Azərbaycan), 3-cü yeri Xuanxo Villaroya (İspaniya) tutub. Bundan əlavə, daha yeddi iştirakçı müsabiqənin diplomantı olub.

Konsertin proqramına Azərbaycan bəstəkarlarının əsərləri daxil edilib. Bundan əlavə, Azərbaycan xalq mahnıları “Sarı gəlin”, “Ağacda alma”, “Aman, ovçu” və digər milli musiqi nümunələri də səsləndirilib.

Pianoda professor Nərgiz Əliyarova çıxış edib. Proqramda ABŞ-də yaşayan gənc azərbaycanlı müğənni Aqil Süleymanov, həmçinin kamera musiqisi ansamblının ifaçıları iştirak ediblər.

Qeyd edək ki, IV Beynəlxalq Bəstəkarlar Müsabiqəsi Azərbaycan xalq mahnılarına həsr olunmuşdu.

## “Ürəyində saxla məni”

Filologiya üzrə fəlsəfə doktoru, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti Aşıq sənəti kafedrasının dosenti, Azərbaycan Aşıqlar Birliyinin sədr müavini Altay Məmmədli bədii yaradıcılıqla da məşğul olur.

Bu günlərdə ustad aşığın ilk şeirlər kitabı işıq üzü görüb. “Ürəyində saxla məni” adlı kitabın redaktoru və ön sözünün müəllifi Əməkdar mədəniyyət işçisi Musa Nəbioğludur. Kitabda müəllifin qoşma, gəraylı, divani, təcnis və müxəmməsləri toplanıb.

# “Cəhənnəm sakinləri” tamaşası Şəkidə nümayiş olunub

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə teatrların regionlarda qastrol səfərləri davam edir. Məqsəd yerlərdə mədəni həyatın fəallaşdırılmasına, yerli yaradıcı kollektivlərlə daha sıx ünsiyyətə və təcrübə mübadiləsinə şərait yaratmaqdır.



Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı noyabrın 11-də “Cəhənnəm sakinləri” tamaşası ilə Şəki Dövlət Dram Teatrında çıxış edib.

Xalq yazıçısı Elçinin eyniadlı pyesi əsasında hazırlanan səhnə əsərinin quruluşçu rejissoru və rəssamı mərhum Xalq artisti Azər Paşa Nemətov, rejissoru Anar Sadıqov, rejissor assistenti Dilbər İsmayılova, musiqi tərtibatçısı Kamil İsmayılovdur.

Tamaşada bəstəkar, Xalq artisti Azər Dadaşovun musiqisindən istifadə olunub.

Rolları Xalq artistləri Məleykə Əsədova, Nurəddin Mehdixanlı, Əməkdar artistlər Elşən Rüstəmov, Mirzə Ağabəyli, aktyorlar Vüsal Mustafayev, Elçin Əfəndi, Ləman İmanov, Rüstəm Rüstəmov, Rada Nəsibova, Ramin Şıxəliyev, Xədicə Novruzlu oynayırlar.

Tamaşa 1937-ci ilin repressiyalarından bəhs edir. İnsanlara qarşı həyata keçirilən kütləvi təqib, mənəvi təzyiq ailələrin içinə də sirayət edir, ər və arvadı üz-üzə qoyur. Günlərin birində evdə peyda olan çağırılmamış qonaq (ər-arvada görə Şeytan) onların əsl mahiyyətini üzə çıxarır, qorxunun insan həyatında hansı faciələrə səbəb olduğunu göstərir.

Səfər çərçivəsində Akademik Milli Dram Teatrının direktoru Əməkdar mədəniyyət işçisi İlham Əsgərov və Şəki Dövlət Dram Teatrının baş rejissoru və direktor vəzifəsini icra edən Əməkdar incəsənət xadimi Mirbala Səlimlinin iştirakı ilə iki kollektiv arasında gələcək əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb. Qeyd edək ki, “Bölgə teatrlarının Bakı premyerası” layihəsi çərçivəsində Şəki teatrının dekabr ayında iki tamaşa ilə Milli Dram Teatrında çıxış etməsi nəzərdə tutulub.



# Yol gedirdi dolana-dolana – Cəbrayıla, Zəngilana...

## Zəfər soraqlı günlərdə azad torpaqlara musiqili səfər

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 8 Noyabr – Zəfər Gününə həsr olunmuş silsilə konsertlərlə əlaqədar Beynəlxalq Muğam Mərkəzinin musiqiçiləri ilə birlikdə qrup rəhbəri olaraq Zəngilan və Cəbrayıl rayonlarına səfər etdik. Bu torpaqlara ilk səfərimdir və çox həyəcanlıyam. Bakıdan noyabrın 7-də səhər saatlarında yola düşdük.

Yolboyu Zəngilanın qısa zamanda necə sürətlə bərpa edildiyinə, tikinti-quruculuq işlərinin necə sistemli şəkildə aparıldığına şahid oluruq. Cəbrayıl, Qubadlı və Zəngilanda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin əməkdaşları da yol yoldaşımızdır.

Rayonun Məmmədbəyli kəndi ərazisindəki türbənin yaxınlığından keçirik. Əməkdaşlar türbə haqqında ətraflı məlumat verirlər. Səfər heyətində aşıq Ruhiyyə Qarabağlı da yer alıb. Əslən bu kənddən olan aşıq doğma elinin vandalizmə məruz qalmış evlərini görən zaman göz yaşını saxlaya bilmir. Deyir ki, ailəsi ilə birlikdə kəndi səkkizinci sinifdə oxuyanda tərk edib. Düz 32 ildir həsrətlə bu günü gözləyirmiş. Uzun ayrılıqdan sonra dağıdılmış kəndlərini görmək ona çox pis təsir edir. Yoldaşlarımız Ruhiyyə xanıma ürək-dirək verir, tezliklə doğma yurduna qayıdacağı günün xəbərini vermənini diləyirlər.

Elə bu an gözlərimiz önünə gələn ürəkaçan mənzərə aşıq Ruhiyyənin də toxtamasına səbəb olur. Məmmədbəyli kəndi yenidən tikilir, evlər sıralanıb. Bundan gözəl nə ola bilər ki?!

Maşından enib onların evinin xarabalıqlarına baxmaq istəyirik. Əfsus ki, təhlükəsizliklə əlaqədar buna icazə verilmir. Amma tikinti aparılan ərazini rahat şəkildə görə bilirik.

Beləcə, acılı-şirinli xatirələrlə Zəngilanın Ağalı kəndinə çatırıq. Ağalı işğaldan azad edilmiş ərazilərimizdə, ümumiyyətlə, Azərbaycanda ərsəyə gətirilən ilk “ağıllı kənd”dir...



“Ağalı” hotel elə də tez-tez qonaq qəbul etmir, deyəsən. Hotelin güləruz personalı təcili otaqların istilik sistemini işə salır. Özlərinin münasibəti də istidir, səmimidir. Rahatlığımız üçün əllərindən gələni etməyə çalışırlar.

Cəbrayıl, Qubadlı və Zəngilanda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin əməkdaşları da bayram tədbirinin yüksək səviyyədə keçməsi üçün bütün qüvvələrini səfərbər ediblər. İlhamiyyə Rza, Nigar Əhmədova, Elgiz Nəbili və xidmətin digər əməkdaşları gecə saatlarına qədər sabahkı konsertlərin proqramına təkrar-təkrar nəzər yetirirlər...

### İşğaldan əvvəlki firavan dövrün tək nişanəsi – işıq dirəyi

Zəngilanda açılan bir payız səhəri. Təmiz hava, sakitlik... Hotelin qarşısında toplaşıb Cəbrayıla yollanırıq. Bir saata Cəbrayıldayıq deyirlər. Bəlkə də tez. Arazın o tayından, Cənubi Azərbaycanın Arazboyu kəndlərindən ərşə qalxan duman bizi izləyir. Arabir qonşu ölkənin mobil şəbəkələri telefonlarımızı “işğal” edir.

Bakı-Mincivan dəmir yol xətti, yeni salınan magistral yol göz oxşayır. Araz çayının bizə yol uzunu yoldaşlıq etməsinin özü də sanki bir nağıldır. Buradakı hər işıq dirəyi dəmir yol xətti ilə Arazboyu stansiyalarda qatarlarımızın fit səsinin yenidən eşidiləcəyi günün heç də uzaqda olmadığını pıçıldayır...



Cəbrayıla yaxınlaşırıq. Rayonun girəcəyindəki dairədə işıq dirəyi görünür – erməni işğalından əvvəl, rayonun firavan dövründən qalan tək nişanə. İlhamiyyə xanım bu dirəyi eksponat kimi saxlamaq fikirlərinin olduğunu bildirir.

Bu məqamda deyim ki, Zəfər konsertinə gedən musiqiçilərdən biri də xanəndə Məbud Əhmədovdur. 44 günlük Vətən müharibəsinin qazisi olan ifaçı döyüş yolundan bəhs edir, xatirələrini bölüşür. Bəzən kədərlənir, bəzən də kədərini gənc xanəndə Rəvan Qaçayevlə birlikdə vətən bayatıları ilə muğama söykəyib gizlətmək istəyir. Deyir ki, döyüş yolu Füzuli rayonunun Horadiz qəsəbəsi istiqamətindən başlayıb. Üzü Cəbrayıla gedirik axı. Məbud da Cəbrayıldakı döyüş yolundan danışır. Duman içində qarşıdakı təpənin arxasında ermənilərlə üz-üzə dayanmalarından söz açır, elə bu ərazilərdə zabit və əsgərlərimizin necə rəşadətlə, peşəkarcasına vuruşduqlarını deyir...

### “6 yaşımda çıxdığım yurduma 6 yaşlı oğlumla qayıdıram...”

Cəbrayıla çatırıq. Elə dünən Cəbrayıl şəhərinə daha 30 ailə (150 nəfər) köçürülüb. Yeni binalarda məskunlaşan sakinlər məmnun və şən görünürlər. Çünki Zəfər bayramını ilk dəfə Cəbrayılda qeyd edirlər. Bayram şənliyində Cəbrayıl şəhəri və Cocuq Mərcanlı kəndinin sakinləri, bölgədə quruculuq-abadlıq işlərini həyata keçirən, fəhlə və ustalar, müxtəlif qurumların əməkdaşları, hərbçilər və onların ailə üzvləri iştirak edirlər. İmkan tapıb sakinlərdən bəziləri ilə həmsöhbət oluram.

Nübar Qəhrəmanova şəhərə yeni köç edən ailələrdəndir. İki qızı ilə birlikdə Zəfər konsertini izləməyə gəliblər. Deyir ki, hələ tam yerbəyer olmayıblar. Amma ev hər cür şəraitlə təmin olunub. Buna görə də dövlətimizə minnətdarlığını ifadə edir.

Burada Bakıdan qonaq gəlib qismətinə konsert izləmək düşən cəbrayıllılar da var. Çox sevinclidirlər. Tezliklə doğma yurda qayıdacaqları günü gözləyirlər. Məryəm xanım müəllimdir. Cəbrayıla əmisigilə qonaq gəlib. Deyir ki, yolboyu ağlımda yalnız bu düşüncə var idi: 6 yaşımda çıxdığım yurduma indi 6 yaşlı oğlumla qayıdıram. Əmisinin həyat yoldaşı da çox razılıq edir. Bildirir ki, burada hər bir şəraitlə təmin olunmuşuq.

Qeyd edim ki, indiyədək Cəbrayıl şəhərində ümumilikdə 163 ailənin, yeni 583 nəfərin daimi məskunlaşması təmin olunub. Doğma yurda qayıdış mərhələli şəkildə davam edir.

Budur, gözlənilən məqam yetişir, Zəfər konserti başlanır. Uşaqlar, qadınlar, əsgərlər böyük sevinc içərisində rəqs edir, şənlənirlər.

Bayram konserti böyük coşqu ilə qarşılandı. Bir daha bu qənaətə gəldim ki, Zəfər, həqiqətən də, böyük qürur, ruh yüksəkliyi, həyatdan dördəlli yapışmaq deməkmiş. Zəfər həm də onu canı-qanı bahasına qazanan Vətən oğullarına minnətdar olmaqdır. Mən də Cəbrayıl sakinlərində məhz bu əhvalı, bu hissləri müşahidə etdim...

### Köksümüzü dolduran əminlik...

Cəbrayılda qalibiyyət əhvallı konsert proqramı böyük alqış sədaları altında yekunlaşır. Musiqiçilər qrupunun bir hissəsini Şuşa və Xankəndiyə yola salıb Zəngilanın Ağalı kəndinə qayıdırıq.

Kəndin mərkəzindəki göyərçinlər abidə-kompozisiyasının yanında xatirə fotosu çəkdirib, qurulan səhnədə konsertə başlayırıq. Vətənpərvərlik ruhunda, eləcə də şən-şux xalq və bəstəkar mahnıları sakinlərin könlünü oxşayır. Xüsusən də uşaqlar və əsgərlərimiz ürəkdən sevinirlər. İfaçılarımızın çıxışları böyük alqışlarla qarşılanır. Burada da səmimi atmosferdə keçən Zəfər konsertimiz başa çatır.

Günəş yavaş-yavaş cənub-qərbdə sıralanan dağların arxasına doğru əyilir. O başqa məmləkətləri işıqlandırmağa gedir. Bizsə əks istiqamətə, şərqə sarı – Bakıya yol alırıq...

Bir qədər yorğunluğumuz var. Təki Zəfər soraqlı tədbirlərdə yorulaq. Yolboyu böyük bir əminlik hissi köksümüzü doldurur: dövlətimizin “Böyük Qayıdış” proqramı ilə Qarabağ və Şərqi Zəngəzurun işğaldan azad olunmuş bütün yurd yerləri işıqlı günlərinə qovuşacaq...

**Lalə Azəri**
**Bakı-Zəngilan-Cəbrayıl-Bakı**

№84-85 (2150)
15 noyabr 2024
www.medeniyyet.az

# "Yetərsən onlara, gözəl Ankara"...

Biz ora müqəddəs bir amal ilə – Zəfərimizi, Qarabağ savaşımızı ehtiva edən "Köhnə çamadanlar" filminin Ankara premyerası üçün gedirdik. Redaktoru olduğum və Zəfərdən sonra çəkilən ilk film də, mənim kimi, Ankaraya ilk səfərini edirdi.

Yol yoldaşı olduğum film heyəti də çox həyəcanlı idi. Üstəlik, reysimiz, türklər demişkən, "aktarmalı" (Bakı-İzmir-Ankara) olduğundan Türkiyə paytaxtına Egeyin səmasını da dolaşıb gedəcəkdik. Rəvayətimizdən xəbərdar dostlar İzmir təəssüratımı soruşanda sübh şəfəqlərində az gördüyüm şəhər haqqında "Yerdən vaxtım olmadı, amma gecənin qaranlığında quş baxışı ilə İzmir bənzərsiz idi" deyib sovuşuram...

### Ankaranın dağları da...

Noyabrın ayazında soyuq vəd edən Ankaraya səhər saatlarında endik. Esenboğa hava limanındaca Ankaranı da, ankaralıları da sevdim. Hava limanı personalının qısa ünsiyyətdə olduğum, "Türkiyəyə ilk gəlişinizdir anladığım qədərilə, umarım məmnun qalırsınız" deyən xanım əməkdaşından, bizi son dərəcə sevgi ilə taksiyədək ötürən nəzarətçinin "Endiyinizdə arabanın baqajını bir daha kontrol edin, Ankara nömrəniz yoxdursa, itən əşyanızı tapmaq sorun olur" qayğıkeşliyi nəyə desən dəyərdi.

Bizi özünün "sarı ceyran"ı ilə hotelimizə aparan yaşlı sürücü Tezcan bəy əslən ankaralıdır. O, "petrol şəhəri Bakı"dan (məhz belə dedi) gəldiyimizi eşidəndə israrla müqayisə eləməyimizi istədi. Sözsüz ki, yol boyu yenilənən, daha doğrusu, nəhəng inşaat bumunu xatırladan Ankaranın məhz bu hissəsi ilə müqayisə elə də çətin olmadı. Oradakı göydələnlər, iri şirkət binaları sayəsində bir növ, sənaye şəhərciyini xatırladırdı. Tezcan bəy təsdiqlədi. Özü də bundan məmnun görünmürdü. Deyir ki, bir zamanlar ucsuz-bucaqsız əkin sahələri olan torpaqlarda indi binalar, zavodlar, fabriklər var. Gözəl, amma mən köhnə Ankara üçün darıxıram.

Bilirsiniz də, taksi sürücüləri hər mövzuda danışmağı sevir və bu mənada arif adamlar olurlar. Ona "Ankara, mənə görə, həm də camilər şəhəridir, sanki. Köhnə, yeni, hətta tikilməkdə olan nə qədər cami var" deyəndə təsdiqlədi. Ardınca da "Əvvəl cami az, namaza gedənlər çox idi, indi isə əksinə" deyib təəssüfləndi. Ardınca da "Yəqin say çoxdur" deyib gülümsündü.

Səhər saat 8-9 aralığında keçən yolçuluğumuzda müşahidə etdiyim Ankara daha sakit idi. Hərçənd biz mərkəz istiqamətində hərəkətdə idik. Dərs, iş saatları olsa da, sıxlıq yox idi.

Yaşıllıq zolağı, yol kənarları geniş idi. Yollar təmirli, avtomobillər nisbətən az, əksəriyyəti də sadə nəqliyyat vasitələri. Bakıdakı tıxaclarda tank kimi nərildəyən hündür ciplər, lüks sedanlar gözümə elə də dəymədi. Bələdiyyə avtobusları, yanımızdan şütüyən "dolmuş" dedikləri kiçiktutumlu mikroavtobuslarda da sıxlıq yox idi. Bu da ondan irəli gəlir ki, Ankarada metro stansiyaları çoxdur. Üstəlik, iş yerləri və təhsil müəssisələrində qrafik eyni zamana hesablanmır.

Ankarada məni məftun edən başqa məqam evlərin balkonlarından asılan türk bayraqları, həmçinin bayraqlaşan



Mustafa Kamal Atatürkün rəsmləri idi. Xalqın Atasına olan sevgi və saygısı, nə yaxşı ki, hər gün, hər zaman keçdikcə artır. Bunu onun anım gününə az qalmış evlərinin eyvanlarını bəzəyən Atatürk rəsmləri ilə göstərən ankaralılara heyran qaldım.

### "Ankarada yedim təzə meyvəni"

Yox, məsələ meyvədə deyil. Şəhəri dolaşarkən yutub üzərindən Ankara ilə bağlı türküləri, mahnıları axtarışa verdim. Bakıdan fərqli olaraq, Ankara ilə bağlı elə də çox mahnı yoxdur. Bir məşhur türkünü dinlədim. Ovqatımı təlx etməsin deyə keçdim Ankara ritmli "Misket" türküsünə. Sonra da dillər əzbəri "Ankaranın bağları"nı zümzümə edə-edə büklüm-büklüm yollarını dolaşdım.

Filmimizin qalasınadək, bir neçə saat da olsa, yol yoldaşlarımla küçə və meydanları gəzib, şəhərin ovqatına uyğunlaşmağa çalışdım. Ankara da Bakı kimi ənənə ilə müasirliyi birlikdə daşımağa çalışır. Köhnə, alçaq damlı, qırmızı kirəmitli yaşayış binaları ilə başı az qala buludlara çatan metal konstruksiyalı göydələnlər adətən yanaşır. Eləcə də iri alış-veriş mərkəzləri ilə önündə ortayaşlı kişilərin "tavla" oynadıqları məhəllə baqqalları.

Təhsil müəssisələri, universitet şəhərcikləri, öyrənci yurdları dedikləri tələbə yataqxanaları, idarə və müəssisələrin sahmanlı binaları göz oxşayırdı. Küçə və prospektlərdə irəliləyən saatlarda sıxlıq olsa da, səs-küy, o iri şəhərlərə xas qarqaşa yox idi.

Günortaya yaxın Ankarada günəş son dərəcə səxavətli oldu. Temperatur artıq +13-ü göstərirdi. Hərçənd tezdən bu göstərici -1 idi.

Ankaralılar ünsiyyətcil, xoşrəftardırlar. Azərbaycanlıları xüsusilə sevirlər. Ləhcəmdən qonaq olduğumu bilib söhbətə tutur, Bakı, Azərbaycan haqqında suallar verirdilər. Hansısa məkanla bağlı suallarıma, ünvan haqqında bələdçiliklərinə gəlincə, çox cəmərddirlər. Məsələn, az qala yolu yarı edənədək səninlə gəlir, izahlar verir, üstəlik, "korsan" dedikləri qaçaq taksilərlə bağlı qayğıkeşliklə xəbərdarlıqlar edirdilər.

Tədbir öncəsi bir neçə saatda Ankaranın Altıntağ rayonu, Ulus, Qızılay, İzmir deyilən küçə, prospekt və meydanlarını dolaşdım.



### Qarabağa sevgi gecəsi

Ankaranın məşhur konsert məkanı – "CSO Ada"-Ankaranın mərkəzi salonunda bir təntənə vardı. 6 noyabr axşamı orada olan hər kəs, dövlət və hökumət rəsmiləri, millət vəkilləri, diplomatlar, sənətçilər, dərnək, vəqf rəhbərləri, eləcə də sadə insanlardan ibarət yüzlərlə tamaşaçı, mən deyərdim ki, azərbaycansevər bir ağızdan Bakı, Qarabağ, Şuşa deyirdi.

"Qadın, sülh, zəfər" adı altında keçirilən və ölkəmizin Qarabağ Zəfərini ehtiva edən zəngin proqramlı tədbirdə "Köhnə çamadanlar" filmi haqqında ge-



niş məlumat verildi. Bildirildi ki, Birinci və İkinci Qarabağ müharibəsi həqiqətlərini real qəhrəmanların xatirələri əsasında ekrana gətirən film Zəfərdən sonra qısa zamanda (2021) istehsal olunub. Ekran əsəri Azərbaycanda 4 dəfə premyera edərək paytaxt Bakıda, Naxçıvanda və Şamaxıda izləyicisi ilə görüşüb. Vurğulandı ki, müharibə və qadın mövzusuna özünəməxsus baxış sərgiləyən, Xocalı soyqırımına, ümumilikdə savaşın ağrı-acısına kinematoqrafik təsvir verən bədii filmin quruluşçu rejissoru Saida Haqverdiyeva, ssenari müəllifi Sevda Sultanova, görüntü rejissoru Şahmar Səfəroğlu, montaj rejissoru Rza Almasi Pərqu, quruluşçu rəssamı Əfşan Əsədova, bəstəkarı Vüqar Camalzadə, baş prodüseri Pərvinə İsmayılova, icraçı prodüserləri Kəmalə Nəhmətova və Nicat Məmmədov, redaktoru Həmidə Rüstəmovadır.

Türkiyə Prezidenti yanında Təhlükəsizlik və Xarici Siyasət Şurasının üzvü professor Aygün Attar, Mədəniyyət və Turizm Nazirliyinin şöbə müdiri Sanem Arıkan, Ankara Ticarət Odasının başqanı Gürsel Baran, MHP başqan müavini professor Mevlüt Karakaya, AK Partiyanın İstanbul millət vəkili Serkan Bayram, Qazi Universitetinin prorektoru professor Hasan Tezer, Ankaralılar və Ankaraya Xidmət Edənlər Dərnəyinin başqanı Hilmi Yaman Türkiyə-Azərbaycan qardaşlığı, iki dövlət arasındakı tarixi əlaqələrə toxundular. Azərbaycanın haqq savaşından danışdılar, şanlı Zəfərinin növbəti ildönümü münasibətilə xalqımızı təbrik etdilər. Dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə güclü və müasir Azərbaycan Ordusunun, mübarizə ruhunu, qələbəyə inamını bir an belə itirməyən Azərbaycan xalqının qazandığı qələbənin bütün Türk dünyasını sonsuz sevincə qərq etdiyi vurğulandı.



Çıxışçılar filmin Qarabağ Zəfərinin rəmzinə çevrildiyini, müharibəyə məcburən cəlb edilmiş sülhsevər Azərbaycan xalqının, onun qadın və uşaqlarının, əslində, dinc insanlarının savaşın ağır sınaqları qarşısındakı mətanətlə mübarizəsinin ekran ifadəsi olduğunu dedilər, onun ərsəyə gəlməsində əməyi olanlara təşəkkürlərini bildirdilər.

Anşlaqla keçən nümayişin ardınca çıxış edən filmin rejissoru S.Haqverdiyeva qəlbində Azərbaycan sevgisi ilə gecəyə qatılan hər kəsə təşəkkürünü bildirdi, filmin hazırlanma prosesindən söz açdı.

Gecənin sonunda ekran işinin yaradıcı heyətinin bir qrupuna təşkilatçılar tərəfindən plaketlər təqdim olundu. Beləcə, iki dost, qardaş ölkənin Qarabağa sevgi şərqisi dilə gəldi...

### Qəbri xatirə olan...

Ankarada olduğum iki gündə bu sərt iqlimli mülayim şəhərin muzeylərini də dolaşaraq, qısa zamana zəngin təəssürat sığdıra bildim. Mənim üçün ən yaddaqalanı, sözsüz ki, sevgimi sözə sığdıra bilmədiyim, heyranlığım qəlbimə sığmayan Mustafa Kamal Atatürkün uyuduğu Anıtqəbir oldu.

Türkiyədə, Ankarada olanlar oraları əzbər bilir. Amma mənim kimi ilk həyəcan yaşayanlar və yaşamaq arzusunda olanlar üçün deyim ki, oranın mistik bir aurası var. Sanki ayaqların yerdən üzülür və sən əzəmətli, füsunkar binanı bir göz qırpımında, elə zənn elə ki, yel qanadlı atın tərkində dolaşırsan. Orada yüzlərlə ziyarətçi vardı və sözsüz ki, bu çoxluq millətin Atasına sevgi ilə buraya gəlmişdi.

Bizə bələdçilik edən kuklaçı-aktrisa, qədim dostum Tijən Bıyıklı deyir ki, bu pərəstiş və hörmət heç bir ayrı-seçkilik olmadan edilir. Yəni, dinindən, irqindən, cinsindən, yaşından və statusundan asılı olmayaraq, hər kəs Atatürkün məzarını ziyarət edir, ruhuna dualar oxuyur.

Anıtqəbir gecə-gündüz 24 saat yüksək diqqət və nəzarətlə qorunur, bəzi gənclər hərbi xidmətlərini burda keçir və bunu böyük fərəh və qürur hissi ilə yerinə yetirirlər.

Bura girişindən çıxışına qədər türk əzəmətini izah edən simvollar, abidələr, əsərlər, maddi və mənəvi xəzinə ilə doludur. Misal olaraq, girişdə bizi sağdan və soldan qarşılayan iki heykəl qrupunu göstərmək olar. Sağ tərəfdə yerləşən üç qadın heykəlindən ibarət abidənin maraqlı mənası var. Belə ki, heykəl qadınlardan biri türk qadınının əzəmətli duruşunu, biri Atatürkə Allahdan rəhmət diləməyi, digəri isə Atatürkün ölümündən duyulan kədəri simvolizə edir. Heykəl qadınların əllərində tutduqları çələng isə Anadolunun bərəkətli torpaqlarını rəmzləşdirir. Sol tərəfdə kişi heykəl qrupu yerləşir və onların da özünəməxsus mənası var. Biri türk əsgərini, biri türk gəncinin aydınlığını, digəri isə Anadolu kəndlisini mənalandırır.

Atatürklə bağlı bütün məlumatları əzbər bilən Tijən xanım onu da deyir ki, Atatürk vəfat edəndən sonra nəşi müvəqqəti olaraq Ankara Etnoqrafiya Muzeyində qoyulub və 1953-cü ildə inşa edilmiş Anıtqəbirə gətirilib.

Anıtqəbir kompleksi hər biri ayrıca məna ehtiva edən müxtəlif qruplardan ibarətdir. Gücü və müstəqilliyi simvolizə edən İstiqlal qalası, azadlığın müqəddəsliyini simvolizə edən Hürriyət qalası, Türk əsgərinin evindən ayrılıb savaşa getməsini simvolizə edən Mehmetcik qalası, Qurtuluş savaşında milli haqların müdafiəsini simvolizə edən Müdafiə haqqı qalası, qələbəni simvolizə edən Zəfər qalası.

Eksponatlarla zəngin muzey hissəsində Atatürkə müxtəlif dövlət başçıları tərəfindən hədiyyə edilən əşyalar, əsərlər, kitablar, silahlar və s. yer alır. Türkiyə Cümhuriyyətinin banisinin geyimləri, şəxsi əşyaları, hədiyyələri, bir sözlə, ona aid olan hər şey bu məkanda göz bəbəyi kimi qorunub saxlanılır.

***

...Ziyarətimiz təxminən iki saat çəkdi. Artıq günorta saatları idi. Fürsət bu fürsət deyib turistləri heyran edən "nöbət dəyişimi" deyilən mərasimi – fəxri qarovulun yenilənməsini də izlədim. Əlində telefonlarla türk əsgərini lentə alan izdihamı müşahidə etdikcə insanın qəlbində qəribə bir hiss – qürur qarışıq hüzn baş qaldırır və sən anlayırsan ki, Atatürk "Məni görmək mütləq üzümü görmək anlayışından uzaqdır. Mənim fikirlərimi, duyğularımı anlayıb hiss edirsinizsə, bu yetərlidir" deyərkən məhz bu anları görüb və hiss edib...

**Həmidə Nizamiqızı**
**Bakı-Ankara-Bakı**

# Milyonçunun türkoloq qızı

*Bolşevik istibdadı üzündən xalqının sabahını düşünən, maarif və mədəniyyət yolunda fədakarlıq edən bir çox ziyalılara, imkanlı şəxslərə öz doğma yurdunda yaşamağa imkan verilməyib. Davamlı təqiblər, məşəqqətlər onları qürbət ellərə köçməyə, ömrünü Vətəndən uzaqlarda başa vurmağa məcbur edib. Bu yazıda tanınmış şərqşünas, türkoloq, professor İren Məlikovanı yada salırıq.*

Tanınmış neft sahibkarı, milyonçu İsgəndər Məlikov 1905-ci ildə neft mədənlərini Robert Nobelə satır və ailəlikcə Sankt-Peterburq şəhərinə köçür. Rusiyanın bir çox şəhərində, xüsusilə Sankt-Peterburqda ticarət mərkəzləri açır. Az vaxt ərzində biznesini daha da genişləndirir. 7 noyabr 1917-ci ildə bu ailədə bir qız uşağı dünyaya göz açır. Adını İren qoyurlar... Ancaq bu elə bir gün idi ki, ölkədə ictimai-siyasi vəziyyət yaxşı deyildi, bolşeviklər hakimiyyətə gəlirdi. Sankt-Peterburqda da çox ciddi dəyişikliklər baş verir. İş adamları, sahibkarlar təqib edilir. İki il çətin və qorxulu bir şəraitdə yaşayan Məlikovlar ailəsi 1919-cu ildə Finlandiyaya köçməyə məcbur olur. Bir müddət burada qaldıqdan sonra həmişəlik Fransaya köçür və Parisdə məskunlaşırlar.

İren orta məktəbi müvəffəqiyyətlə başa vurduqdan sonra Sorbon Universitetinə daxil olur. İngilis dili və ədəbiyyatını yüksək səviyyədə öyrənir. Eyni zamanda Şərq Dilləri Dövlət Məktəbində türk dili üzrə də biliyini təkmilləşdirir. Tanınmış türkoloqların mühazirələrini dinləyir. O, ümumiyyətlə, fransız dilindən başqa türk, fars və ərəb dillərini də öyrənir. Universiteti uğurla başa vurduqdan sonra elmi işlə məşğul olur...

1940-cı ildə Parisdə məşhur türk riyaziyyatçısı Salih Zəki Sayarın oğlu türkoloq Faruq Sayar ilə ailə qurur. II Dünya müharibəsi vaxtı faşist Almaniyası Fransanı işğal edir. Bu səbəbdən də İren Məlikova 1941-ci ildə həyat yoldaşı ilə birlikdə Türkiyəyə köçür. Xeyli vaxt orada yaşayırlar. Yazıb-yaratmaq, elmi araşdırmalar aparmaq istəyi onu bir an rahat buraxmır. Nəhayət, müharibə bitir, İ.Məlikova 1948-ci ildə Fransaya qayıdır və türkologiya sahəsində araşdırmalar aparır. Onun tədqiqatları Türkiyə, Azərbaycan, İran və Orta Asiya ölkələri kimi çox geniş bir coğrafiyanı əhatə edir. Strasburq Universitetində Türkologiya və İran fakültəsinin dekanı təyin olunur. Bir sıra beynəlxalq elmi qurumların, o cümlədən Asiya və Ernest Rene kimi məşhur cəmiyyətlərin üzvü seçilir.

İ.Məlikova əsasən Azərbaycanın qədim tarixi və ədəbiyyatını araşdırıb. 1957-ci ildə doktorluq dissertasiyası müdafiə edir. "Danişmənd dastanı", "Əbumüslüm Xorasani", "Umur paşa dastanı" adlı kitabları işıq üzü görür. 1957-ci ildən 1964-cü ilədək Elmi Araşdırmalar Milli Mərkəzinin Şərqşünaslıq bölməsində çalışır. Sonra Strasburq Humanitar Elmlər Universitetində fəaliyyət göstərir. Bir müddətdən sonra bu məşhur təhsil və elm ocağının professoru olur. Burada işləyə-işləyə türk dilləri və ədəbiyyatı sahəsində böyük elmi mərkəz yaratmağa səy göstərir. Gərgin araşdırma və yaradıcılıq fəaliyyəti sayəsində istəyinə nail olur. Yaratdığı Türkiyyat Araşdırmaları İnstitutu qısa müddət ərzində Avropada ən nüfuzlu türkoloji mərkəzlərdən birinə çevrilir.

İ.Məlikova 1984-cü ildə Strasburq Humanitar Elmlər Universitetində Azərbaycan Mədəniyyətini Araşdırma Mərkəzini yaradır və onun rəhbəri seçilir. Dörd ildən sonra mərkəzin adı dəyişdirilərək Azərbaycan Mədəniyyətini və Sivilizasiyasını Öyrənən Mərkəz kimi tanınır. Professor İ.Məlikova mərkəzin prezidenti, professor Lui Bazen və Timurçin Hacıbəyli (Ceyhun Hacıbəylinin oğlu) vitse-prezident seçilirlər. Mərkəz qarşıya qoyduğu məsələləri planlı şəkildə həyata keçirir. Azərbaycanın tarixi-mədəni zənginliklərini təbliğ edir, tanınmış yazıçı və şairlərimizin əsərlərinin nəşrinə nail olur, alimlərimizlə görüşlər keçirilir. Araşdırmalarda qeyd edilir ki, İ.Məlikova Strasburq Universitetində işə başlayanda bu ali təhsil ocağının türk şöbəsində cəmi iki tələbə oxuyub. Onun



ardıcıl səyləri nəticəsində bir neçə il sonra bu tələbələrin sayı 380 nəfərə çatır. Onların 40 faizi dil, 60 faizi isə ədəbiyyat və mədəniyyət ixtisasları üzrə təhsil alıblar.

Böyük məqsəd, arzu və istəklə yazıb-yaradan İ.Məlikova Strasburq Universitetində dil və ədəbiyyatdan dərs deməklə yanaşı, Azərbaycanla bağlı araşdırmalarını da davam etdirib. Yeri gəlmişkən deyək ki, Qərbi Avropada nəşr edilən yeganə türkologiya jurnalı "Türkika"nın baş redaktoru da o idi. 1988-ci ildə Azərbaycan Yazıçılar Birliyinin "Ədəbiyyat və incəsənət" qəzetində onun "Türk Qafqaz qeydləri" silsiləsindən "Babək Xürrəmi və Seyid Battal" adlı böyük məqaləsi dərc edilib. Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra İ.Məlikovanın elm və təhsil ocaqlarımızla əlaqələri yaranıb. O, eyni zamanda Bakı Dövlət Universitetinin fəxri professoru seçilib.

Azərbaycan haqqında bitib-tükənməyən istək və arzular xanım professoru İrana aparır. Oradan Cənubi Azərbaycana gəlir. Təbriz şəhərini başdan-başa gəzir və tarixi memarlıq abidələrini yaxından seyr edir. Azərbaycan ədəbiyyatını araşdırmaq məqsədilə çox səyahət edir, Şah İsmayıl Xətai haqqında xeyli material toplayır...

Azərbaycan dövləti qürbətdə yaşayıb fəaliyyət göstərən bu soydaşımızı da diqqətdə saxlayıb. Prezident Heydər Əliyev 1997-ci ilin 11 oktyabr tarixində Avropa Şurasına üzv ölkələrin dövlət və hökumət başçılarının zirvə görüşündə iştirak etmək üçün Strasburqa səfəri zamanı İ.Məlikova ilə görüşüb. Həmin görüşdə türkoloq-alim öz kitablarını Ulu öndərə hədiyyə edib.

Ömrü ata yurdu Azərbaycandan uzaqlarda keçsə də, daim ölkəmizi düşünən professor İren Məlikova 9 yanvar 2009-cu ildə, 92 yaşında Strasburqda vəfat edib.

**Savalan Fərəcov**

# "Niyyətimiz milli ruh anlayışını gənclərə dərindən öyrətməkdir"

## Ankaradakı Rəsulzadə adına Anadolu liseyinin direktoru: "Türk dünyası şagirdləri üçün BMT-nin model layihəsinin bənzərini hazırlamışıq"




"İnsanlara hürriyyət, millətlərə istiqlal" düşüncəsi ilə dünyanın mütəfəkkir siyasi xadimləri arasında xüsusi yer tutan Azərbaycanın müstəqillik mücahidi Məhəmməd Əmin Rəsulzadənin (1884–1955) bu il anadan olmasının 140 illik yubileyidir.

Türkiyənin paytaxtı Ankaradakı Məhəmməd Əmin Rəsulzadə adına Anadolu liseyi 30 ildən çoxdur fəaliyyət göstərir. Yalnız Rəsulzadənin adını yox, həm də onun öndərlik ruhunu daşıdığı üçün bu məktəbin şagirdləri bilik göstəricilərinə görə ilk sıralarda yer alırlar.

Liseyin direktoru Taylan Kaya türk milli-mənəvi dəyərlərinin fəal təbliğatçısıdır. Beş ildir bu məktəbə rəhbərlik edir. Taylan Kaya bundan öncə də Rəsulzadəni Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri olaraq tanıdığını deyir və liseyin direktoru kimi ilk olaraq Rəsulzadə guşəsi təşkil edib: "Açılışa millət vəkillərini, Azərbaycanın Türkiyədəki səfirini, səfirliyin nümayəndələrini çağırdıq, gəlib iştirak etdilər".

Amma məktəbin yerləşdiyi bina zəlzələyə davamsız tikililər siyahısında olduğu üçün 2021-ci ildə təhsil ocağı başqa bir yerə köçürülüb. Bina sökülüb və ilin əvvəlindən inşaata başlanılıb.

Taylan Kaya: "Müvəqqəti olaraq yerləşdiyimiz məktəbdə Rəsulzadə guşəsini qurmaq mümkün olmadı, amma burada Azərbaycanın Türkiyədəki Səfirliyinin dəstəyi ilə Azərbaycan otağı yaradılıb. Burada Azərbaycanın tanınmış yazıçı və şairlərinin, şəxsiyyətlərinin fotoları da yer alır. Məktəbimizin yeni binasının inşaat işləri isə başa çatmaq üzrədir, çox modern və gözəl bir bina inşa edilib. İki-üç ay ərzində öz binamıza qayıdacağıq, o zaman Rəsulzadə adına yenidən quracağımız guşədə Azərbaycan otağından da nümunələr yerləşdirməyi düşünürük".

Taylan Kaya hər il Rəsulzadənin adı ilə bağlı layihələr həyata keçirdiklərini deyir: "Bu il Rəsulzadənin 140 illiyi ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyevin verdiyi sərəncamdan çox məmnun olduq. Hər il Rəsulzadənin xatirəsinə həsr olunan layihələr icra edirik. Bu dəfə öz məktəbimizə qayıtdıqdan və Rəsulzadə guşəsini qurduqdan sonra möhtəşəm bir açılış edəcəyik. Açılışa hər iki ölkənin təhsil nazirlərini, Azərbaycanın millət vəkillərini, Rəsulzadənin Türkiyədə qurduğu Azərbaycan Kültür Mərkəzinin nümayəndələrini, təbii ki, medianı da dəvət eləmək fikrindəyik. Azərbaycanla əlaqələrimizi genişləndirməyə çalışırıq. Dəfələrlə səfir və səfirlik nümayəndələri məktəbimizə gəliblər. Yeri gəlmişkən, məktəbimizin yeni binasının tikintisinin sürətləndirilməsi ilə bağlı göstərdiyi diqqətə görə səfir Rəşad Məmmədova təşəkkür edirik".



Rəsulzadə adına Anadolu liseyin şagirdləri ali məktəblərə qəbulda, olimpiadalarda, bilik yarışlarında yüksək göstəricilərə nail olurlar. Direktor bunun sirrini şagirdlərə sərbəstlik verilməsi ilə əlaqələndirir: "Ali məktəblərə hazırlanan gənclər seçim yolu ilə liseyimizə qəbul edilir. Bu il 27 məzunumuz tibb üzrə universitetə qəbul oldu.

Məktəbimiz Ankaranın qəlbi deyəcəyimiz yerlərindən birində – Çukurambar məhəlləsindəki Öyrətmənlər küçəsindədir. Bu məkanın ayrıca bir cəlbediciliyinin olması da, fikrimcə, şagirdlərimizə ruh yüksəkliyi verir".

Taylan Kaya lisey şagirdlərinin sosial, mədəni həyatda, idman sahəsində də aktiv olduqlarını bildirir: "Şagirdlərimiz ilçə (rayon) birinciliklərində çox hallarda ilk yeri tuturlar. Musiqi klubumuz var, onun fəaliyyəti ilə bağlı "TRT Müzik"də proqramlar da yayımlanıb. "Qafqaz" rəqs qrupumuz da fəaldır. Tədbirlərimizdə Azərbaycan rəqsləri çox rəğbətlə qarşılanır.

Bundan başqa, Azərbaycan və Türkiyənin Təhsil nazirlikləri iki ölkə arasında birliyi ifadə edən şeir, rəsm və kompozisiya yarışması keçirmişdi, 3 nominasiyanın da qalibi bizim şagirdlərimiz oldu. Onların Azərbaycana 10 günlük səfəri təşkil edildi, Şuşaya da getmişdilər və çox zəngin təəssüratla döndülər".

Liseyin Türk dünyası ilə bağlı rəngarəng layihələrinin də olduğunu deyən direktor bu işdə Azərbaycan əsilli müəllim Murat Güləbətəkinin xüsusi rolunu vurğulayır.

Murat Güləbətəkin: "2007-ci ildən burada çalışıram. İlk gəldiyimdə məktəbimizin Azərbaycanla əlaqələrini öz üzərimə götürdüm. 2015-ci ildə həmkarım Hayrı Ataş ilə bərabər bir layihə həyata keçirdik. Bakı Türk Anadolu liseyindən 20-dək müəllim və şagirdlər gəldi, liseyimizdə tədbirlər təşkil edildi və böyük maraqla qarşılandı. Sonra biz 2018-ci ildə "Qardaş köməyi" adlı bir layihə icra etdik, Bakıya, oradan da Ağcabədi rayonunda məskunlaşan Laçın rayon Vağazin kənd orta məktəbinə getdik. Çox xoş bir səfər oldu.

2021-ci ildə "Türk Kültür Irmağı" adlı ("ırmak" – çay) layihəmizi onlayn formatda Azərbaycandan Sabunçu rayonu 170 nömrəli orta məktəb, Kosovodan Atatürk liseyi, Qaqauz Yerindən (Moldova) Süleyman Dəmirəl liseyi – 4 məktəb birgə həyata keçirdik. Layihə çərçivəsində 20 şagird, 6 müəllimlə Kosovaya getdik. Sonra Qaqauz Yerinə, keçən il mayın 5-də isə direktorumuz, digər bir müəllimimiz və 7 şagirdlə bərabər Bakıya səfər etdik. Bakı Türk Anadolu liseyində bizi çox gözəl qarşıladılar. Şagirdlərimizlə Bakının görməli yerlərini gəzdik".

Taylan Kaya: "Bakıda qaldığımız bir həftə ərzində ən gözəl qonaqpərvərliyi gördük. Qardaşı Qarabağ şəhidi olan bir valideyn bizi evinə dəvət etdi. Şəhid anasını ziyarət etdik, xeyir-duasını aldıq. Bir sözlə, Azərbaycanda əsla unutmayacağımız xoş xatirələr yaşadıq. Bir həftə sonra da Azərbaycandan məktəbimizə şagirdlər gəldi. Onları Ankarada gəzdirdik, o cümlədən Anıtqəbri – Atatürkün mavzoleyini ziyarət etdik".

Taylan Kaya hesab edir ki, Türkiyə ilə Azərbaycan Türk dünyasının lokomotivi olduğu üçün iki ölkə arasındakı əlaqələr ilk növbədə təhsil vasitəsilə, uşaqların ünsiyyətləri nəticəsində güclənər və bu çox yaxşı örnək rolunu oynayar: "Son dönəmlərdə Azərbaycandakı məktəblərlə əlaqələr qura bilmişik və bunun davam etməsini arzu edirik. Məsələn, "Şəhidin şəhidimdir" adlı layihə icra etmək, bu layihə çərçivəsində II Qarabağ savaşı şəhidlərinin, yaxud qazilərinin övladlarını Türkiyəyə dəvət edib, məktəbimizlə, ölkəmizlə tanış etmək istərdik. Bu layihənin həyata keçməsi üçün xərcləri də özümüz qarşılamağa hazırıq".

Direktor Türkiyə Milli Təhsil Nazirliyinə təqdim edəcəkləri layihələrindən də bəhs etdi: "İki ildir bu layihə üzərində işləyirik. İstərdik ki, 10-cu sinif şagirdlərimizidən 10-u bir tədris dönəmini, yəni 3-4 ayı Azərbaycanda Bakı Türk Anadolu liseyində, ikinci dönəmi də Azərbaycandan 10 şagird təhsil müddətini bizim liseydə keçirsin. Yəni Avropa Birliyi layihəsi çərçivəsində xarici ölkələrlə şagird mübadilə proqramı icra olunur. Hazırda Amerikada bir şagirdimiz var. Avropa ölkələrindən də şagirdlər gəlib bu proqramda iştirak edir, türkcə təhsil alırlar. Türk dünyası ilə nədən belə bir layihə mümkün olmasın? Biz bu layihəni ilk olaraq Azərbaycanla reallaşdırmaq, sonra isə Türk dünyasında yaymaq arzusundayıq. Türk dövlətləri arasında siyasi, iqtisadi, mədəni səviyyədə əlaqələri tənzimləyən qurumlar var, universitetlər arasında belə fəaliyyət var, amma lisey səviyyəsində belə fəal bir qurum yoxdur".

BMT-nin nəzdində "Model Birləşmiş Millətlər" (ingiliscə: Model United Nations, MUN) adlı yeniyetmə və gənclərin birləşdiyi təhsil qurumundan misal gətirən direktor bunun Türk dünyasında tətbiq olunmasının mümkünlüyündən də danışdı: "MUN təhsil simulyasiyasında hər ölkədən məktəbli nümayəndələr seçilir və onlar təhsil məsələləri ilə bağlı toplantılar keçirirlər. Bu layihənin bənzərini Türk dünyası şagirdləri icra edə bilərlər. Türk Dövlətləri Təşkilatının nəzdində belə bir qurum yaranarsa, gözəl olar. Şagirdlərimizin də könül bağlarının möhkəmlənməsi vacibdir. Bununla əlaqədar Türkiyənin Təhsil, Mədəniyyət və Turizm nazirlikləri ilə danışmışıq. İlk olaraq öz məktəbimizdən başlamaq niyyətindəyik...".

Murat müəllim isə məktəbdə qurulan Türk dünyası topluluğundan bəhs etdi: "Bu, ümumtürk tarixi, mədəniyyəti, ədəbiyyatı və musiqisi ilə bağlı bir layihədir. Builki tədris ilində direktor mənim dərs proqramıma türk düşüncə tarixi dərsini də əlavə etdi. Şagirdlərimə tapşırıq verdim ki, hərəniz bir türk xalqının milli musiqisini öyrənib səsləndirin. Azərbaycanda analarımız körpələrinə "lay-lay", Türkiyədə "ninni" oxuyur, bəs qazax, qırğız, özbək, digər türk xalqları uşaqlarına nə oxuyur? Gənclərimizə Üzeyir Hacıbəylinin musiqisini, Rəşid Behbudovun oxuduğu mahnıları dinlətdirirəm. Liseyimizin adını daşıdığı Rəsulzadənin xatirəsini də yaşadırıq. Onun anım və doğum günlərində məzarını ziyarət edirik. Niyyətimiz milli ruh anlayışını gənclərə dərindən öyrətməkdir".

**Mehparə Sultanova**
**Ankara**

## Xatirə təqvimi — 15 – 19 noyabr

### Azərbaycan

**15 noyabr 1927** – Xalq artisti, rəqqasə Xumar Rza qızı Zülfüqarova (1927 – 2.7.2017) Bakıda doğulub. Opera və Balet Teatrının solisti, Dövlət Mahnı və Rəqs Ansamblının baletmeysteri olub. Bakı Xoreoqrafiya Məktəbində dərs deyib.

**15 noyabr 1933** – Ədəbiyyatşünas, professor Firudin Cəlal oğlu Hüseynov (1933 – 31.8.1986) anadan olub. BDU-nun Filologiya fakültəsinə, Azərbaycan ədəbiyyatı tarixi kafedrasına rəhbərlik edib.

**16 noyabr 1938** – Azərbaycan teatrının görkəmli nümayəndəsi, aktyor, rejissor, Xalq artisti Abbas Mirzə Əbdülrəsul oğlu Şərifzadə (9.3.1893 – 1938) repressiyaya məruz qalaraq güllələnib.

**16 noyabr 1995** – Xalq artisti Zemfira Məmmədəli qızı Əliyeva (25.12.1941 – 1995) vəfat edib. Gəncə, Naxçıvan teatrlarında, Milli Dram Teatrında çalışıb, filmlərdə çəkilib.

**16 noyabr 2021** – Əməkdar artist, tanınmış aktyor Məcnun Salam oğlu Hacıbəyov (5.10.1935 – 2021) vəfat edib.

**16 noyabr 2021** – Tanınmış heykəltaraş, Ukraynanın Xalq rəssamı Seyfəddin Əli oğlu Qurbanov (19.10.1962 – 2021) vəfat edib.

**17 noyabr 1906** – Dünyaşöhrətli xalçaçı alim, dekorativ sənət ustası, Xalq rəssamı Lətif Hüseyn oğlu Kərimov (1906 – 9.9.1991) Şuşada anadan olub. "Azərbaycan xalçalarında ornament", "Azərbaycan xalçası" çoxcildliyi və s. kitabların müəllifidir. L.Kərimovun təşəbbüsü ilə Bakıda Xalça Muzeyi təşkil olunub.

**17 noyabr 1933** – Əməkdar incəsənət xadimi, pianoçu Gülarə Əziz qızı Əliyeva (1933 – 27.7.1991) Bakıda doğulub. "Dan ulduzu" instrumental ansamblının qurucusu və rəhbəri olub. "Şüştər" rapsodiyası, "Humayun" süitası, "Bayatı-kürd", "Şur" fantaziyalarının müəllifidir. Mədəniyyət və İncəsənət Universitetində Musiqi nəzəriyyəsi kafedrasının müdiri olub.

**17 noyabr 1954** – Əməkdar mədəniyyət işçisi Zemfira Baba qızı Babayeva (1954 – 20.7.2021) anadan olub. "Azərbaycanfilm" kinostudiyasında işləyib. Bakı Bələdiyyə Teatrında truppa müdiri olub.

**17 noyabr 1978** – Əməkdar artist Səməd Əmiraslan oğlu Tağızadə (1907–1978) vəfat edib. Gəncə Dövlət Dram Teatrında aktyor, truppa müdiri işləyib.

**17 noyabr 2006** – Xalq artisti Gülşən Ağadadaş qızı Qurbanova (19.12.1950 – 2006) vəfat edib.

**18 noyabr 1990** – Tanınmış aktyor Əfrasiyab Əli oğlu Məmmədov (19.3.1928 – 1990) vəfat edib. "Qızmar günəş altında", "Koroğlu", "Dədə Qorqud" və s. filmlərdə çəkilib.

**18 noyabr 1994** – Görkəmli teatrşünas, publisist, Əməkdar mədəniyyət işçisi Qulam Məmməd oğlu Məmmədli (25.3.1897 – 1994) vəfat edib.

**18 noyabr 2000** – Görkəmli bəstəkar, Xalq artisti Emin Sabitoğlu (Mahmudov; 2.11.1937 – 2000) vəfat edib. Musiqili komediyaların, populyar mahnıların müəllifidir, çoxsaylı filmlərə ("Bizim Cəbiş müəllim", "Gün keçdi", "Dədə Qorqud", "Onun bəlalı sevgisi", "İstintaq" və s.) musiqi yazıb.

**18 noyabr 2023** – Xalq rəssamı, heykəltaraş Akif İzzətulla oğlu Əsgərov (1.5.1940 – 2023) vəfat edib. Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının professoru olub.

**19 noyabr 1907** – Xalq artisti Kseniya Lvovna Babiçeva (1907–1984) anadan olub. 1938-ci ildən Azərbaycan Dövlət Rus Dram Teatrında aktrisa kimi fəaliyyət göstərib.

**19 noyabr 1915** – Bəstəkar, tarzən Hökümə Yusif qızı Nəcəfova (1915–2002) Bakıda anadan olub. "Kaş ki, gözəl olmayaydım", "Ceyran balası" və s. populyar mahnıların müəllifidir.

**19 noyabr 1934** – Tanınmış arxeoloq, tarix üzrə fəlsəfə doktoru, Qobustan abidələrinin tədqiqatçısı Firuzə Məmmədrza qızı Muradova (1934 – 16.1.2024) Bakıda anadan olub.

**19 noyabr 1935** – Dilçi alim, AMEA-nın müxbir üzvü Zemfira Nadir qızı Verdiyeva (1935 – 8.11.2010) anadan olub. German dilləri üzrə elmlər doktoru olmuş ilk azərbaycanlı alimdir. Xarici Dillər İnstitutunun (indiki Azərbaycan Dillər Universiteti) rektoru olub.

**19 noyabr 1946** – Populyar müğənni Hüseynağa Məmməd oğlu Hadıyev (1946 – 12.1.1994) Bakıda doğulub. "Dan ulduzu" ansamblının solisti olub.

**19 noyabr 2022** – Əməkdar mədəniyyət işçisi, teatr xadimi Natiq Məmməd oğlu Gülməmmədov (10.6.1955 – 2022) vəfat edib.

### Dünya

**15 noyabr 1862** – Alman yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1912) laureatı Gerhart Hauptman (Gerhart Johann Robert Hauptmann; 1862 – 6.6.1946) anadan olub. "Atlantida", "Kabus" romanlarının, "Tənhalar", "Kasıb Henrix", "Qış balladası" və s. pyeslərin müəllifidir.

**16 noyabr 1895** – Alman bəstəkarı və dirijoru, musiqi nəzəriyyəçisi Paul Hindemit (Paul Hindemith; 1895 – 28.12.1963) anadan olub.

**17 noyabr 1895** – Məşhur rus filosofu, incəsənət nəzəriyyəçisi Mixail Baxtin (1895–1975) anadan olub.

**18 noyabr 1786** – Alman bəstəkar və musiqişünası Karl Maria fon Veber (Carl Maria von Weber; 1786–1826) anadan olub.

**18 noyabr 1860** – Polyak bəstəkarı və pianoçusu İqnasi Paderevski (Ignacy Padereweski; 1860–1941) anadan olub.

**18 noyabr 1927** – Rusiya kinorejissoru, ssenarist, SSRİ Xalq artisti Eldar Ryazanov (1927 – 30.11.2015) anadan olub. Filmləri: "Avtomobildən qorun!", "Qəribə təsadüf və ya həmişə təmizlikdə", "İşdə məhəbbət macərası", "İki nəfər üçün vağzal" və s.

**19 noyabr 1528** – İntibah dövrünün italyan rəssamı Paolo Veroneze (Paolo Veronese-Cagliari; 1528–1588) anadan olub.

**19 noyabr 1900** – Alman yazıçısı, incəsənət və ədəbiyyat nəzəriyyəçisi Anna Zegers (Anna Seghers – əsl adı Netty Reiling; 1900–1983) anadan olub. Əsərləri: "Fevralda yol", "Ölmüş qızların gəzintisi", "Dar ağacında işıq" və s.

**19 noyabr 1903** – Məşhur baletmeyster və pedaqoq, SSRİ Xalq artisti Asaf Mixayloviç Messerer (1903–1992) anadan olub.

**Hazırladı: V.Orxan**

# Orqan və kamançanın həzin sədaları İsveçrədə qovuşub

Soyuq payız axşamlarının birində Avropanın füsunkar ölkələrindən olan İsveçrənin Bazel şəhərində Azərbaycan musiqisinin həzin sədaları ürəkləri qızdırıb. Azərbaycanlı orqan ifaçısı, beynəlxalq müsabiqələr laureatı Şəfəq Abdullayeva və kamança ifaçısı, beynəlxalq müsabiqələr laureatı Mədinə Şahgəldiyeva Azərbaycanın Dostları Assosiasiyasının (İsveçrə) təşkilatçılığı, Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə "Müqəddəs Ruh" katolik kilsəsində konsert proqramı ilə çıxış ediblər.

Konsertin əsas özəlliyi orqan və kamançanın ifasında möhtəşəm səslənmənin, ahəngin və harmoniyanın dinləyicilərə təqdim edilməsi idi. Hər il "Klavier-Orgel festival"ının keçirildiyi bu kilsədə ilk dəfə olaraq Avropanın şah aləti hesab olunan orqanın unikal səs imkanları ilə vəhdətdə Azərbaycan kamançasının sədaları altında rəngarəng musiqi əsərləri səsləndirilib.

Bakı Musiqi Akademiyasında təhsil almış musiqişünas, istedadlı orqan ifaçısı Şəfəq Abdullayeva xeyli müddətdir ki, Azərbaycan bəstəkarlarının əsərlərini, muğam və xalq mahnılarımızı orqan üçün işləyərək müxtəlif konsert proqramları ilə çıxışlar edir. Ü.Hacıbəylinin "Koroğlu" operasından uvertüra, S.Hacıbəyovun "Karvan" simfonik lövhəsi, F.Əmirovun "Şur" simfonik muğamı, "Laçın" xalq mahnısı və ifaçının tələbəlik illərində fortepiano üçün, daha sonra orqan üçün işlədiyi "Humayun" muğamı və bir sıra digər əsərlər Azərbaycanda konsert salonlarında səslənən zaman orqan alətinin hüdudsuz səs imkanlarının, zəngin palitrasının təsiri dinləyiciləri valeh edib. Orqan alətinin səslənmə tərzində Azərbaycan milli ruhunun təcəssümü həmişə maraqla qarşılanıb.

Bazel şəhərində keçirilən konsertdə isə Şəfəq Abdullayevanın orqan və kamança üçün işlədiyi əsərlər ilk dəfə Azərbaycandan kənarda səslənib. Orqan və



kamançanın həzin sədalarının bir-birinə qovuşması Avropa tamaşaçısına böyük zövq yaşadıb.

İfaçı konsertdən sonra təəssüratını bölüşərkən deyib: "Öncə İsveçrədə, məşhur kilsədə Azərbaycan musiqisi gününün keçirilməsində təşkilatçılığına görə layihənin müəllifi Arzu Əliyeva-Bodmerə dərin təşəkkürümü bildirirəm. Konsertin yüksək səviyyədə təşkil olunması məhz Arzu xanımın milli musiqimizə, vətənimizə olan dərin sevgisinin təcəssümü idi. Konsert zamanı qürbətdə yaşayan soydaşlarımızla görüş, onların sevgi dolu sözləri həmişə xatirəmizdə yaşayacaq".

Qeyd edək ki, konsertdə "Bayatı-Şiraz" və "Şur" muğamları, eləcə də Üzeyir Hacıbəyli, Vaqif Mustafazadə və Hacı Xanməmmədovun əsərləri səsləndirilib.

Gecədə həmçinin dünyaca məşhur fotoqraf Andre Cabalinin Azərbaycanın zəngin tarixinə və füsunkar təbiətinə həsr olunmuş fotosərgisi nümayiş etdirilib.

Sonda layihənin müəllifi Arzu Əliyeva-Bodmer çıxış edərək Azərbaycandan kənarda bu cür konsertlərin keçirilməsinin vacibliyini və dövlət qurumlarımızın bu işdə dəstəyinin əhəmiyyətini vurğulayıb.

Musiqi bütün dövrlərdə mədəniyyətlərarası dialoqun əsas vasitələrindən biri olub. Azərbaycan musiqisinin həzin sədaları, orqan və kamançanın əsrarəngiz sehrinin təsiri hələ uzun müddət isveçrəli dinləyicilərin qəlbində yaşayacaq.



**Mehparə Rzayeva**
**musiqişünas**

№84-85 (2150)
15 noyabr 2024
www.medeniyyet.az

# Şimali Kipr türkləri Cümhuriyyətin 41 yaşını qeyd edirlər

15 noyabr Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) yarandığı gündür. 1983-cü ilin bu günü Kipr adasının türk əhalisi özgürlük mücadiləsinin davamı olaraq cümhuriyyətini elan edib. Təəssüf ki, ötən onilliklərdə beynəlxalq münasibətlərdəki ikili standartlar üzündən haqsız izolyasiya şəraitində yaşayan Şimali Kiprin müstəqilliyi Türkiyədən başqa bir dövlət tərəfindən hələ tanınmayıb. Türkiyə (ovaxtkı Osmanlı) dövləti isə hələ XV əsrdən Kiprdə türk varlığının qarantı olmuşdu...



Kipr adası (ərazisi 9,3 min kv. km.) dörd əsrdən çox – 1878-ci ilə qədər Osmanlı imperatorluğunun tərkibində olub. 1877–1878-ci illərin Balkan savaşında Rusiyaya məğlub olan Osmanlı İngiltərəni özünə müttəfiq etmək məqsədilə Kipri ona müvəqqəti idarəçiliyə verir. Əslində, bu, Kipr üzərində Osmanlı-türk idarəçiliyinin sonu idi.

Birinci Dünya müharibəsində Osmanlı Almaniyanın tərəfində ingilislərə qarşı savaşa girir və müharibədə məğlub olaraq Kipri birdəfəlik itirir. 1923-cü ildə Türkiyə Lozanna anlaşması ilə adanı Britaniyanın müstəmləkəsi olaraq qəbul edir. Bu dövrdən başlayaraq Kiprdə türk əhalisinə qarşı təqiblər artır. 1929-cu ildə adadakı yunan çoxluğu ingilis idarəçiliyinə qarşı çıxışlara və Kiprin Yunanıstana birləşdirilməsi (enosis) uğrunda mübarizəyə başlayır. Bu çıxışlar İkinci Dünya müharibəsindən sonra da davam edir və Britaniya 1959-cu ildə Kiprə müstəqillik vermək qərarına gəlir. Londonda Britaniya, Türkiyə və Yunanıstan tərəfindən imzalanan anlaşmaya görə, Kipr adasında müstəqil dövlətin yaradılması qərara alınır.

1960-cı ildə adanın yunan və türk icmalarının iştirakı ilə Kipr Respublikası yaranır. İngilislər adanı tamamilə tərk etmirlər, Kiprdə onların iki hərbi dəniz bazası saxlanılır.

Kipr Respublikası iki icmanın konfederativ əsasda bir araya gəlməsi ilə qurulmuşdu, ölkənin prezidenti yunan (Makarios), vitse-prezident isə türk icmasının lideri (Fazıl Küçük) idi. 10 nazirdən ibarət hökumətdə türklərin 3, 50 nəfərlik parlamentdə 15 yeri vardı.

Lakin yunan bölümündə "enosis" ideyası qalmaqda idi və 1963-cü ilin dekabrında yunan tərəfin Kipr Respublikasının konstitusiyasını dəyişdirmək və türk bölümünün hakimiyyətdəki haqlarını mənimsəmək cəhdi ilə vahid dövlətin mövcudluğuna son qoyulur. 1964-cü ilin əvvəlində türklər və yunanlar arasında silahlı münaqişə başlanır.

Bu vəziyyət 10 il sürür. 1974-cü ildə Yunanıstanda hərbi çevriliş baş verir və hakimiyyətə gələn "qara polkovniklər" diktaturası iyulun 15-də Kipr adasının bütünlüklə Yunanıstana birləşdirildiyini elan edir. Türklərə qarşı yeni qətliam başlanır.

Nəhayət, iyulun 20-də Türkiyə dövləti Kiprdəki türk əhalisini qırğınlardan qorumaq üçün adaya hərbi kontingent yeritməli olur. Adanın ikiyə bölünməsi başa çatır. 1975-ci ildə adanın türk bölümündə Kipr Türk Federativ Cümhuriyyəti, 1983-cü il noyabrın 15-də isə ŞKTC elan edilir. Kipr türklərinin öndəri Rauf Denktaş prezident seçilir və 22 il ŞKTC-yə rəhbərlik edir...

Ötən müddətdə Kipri yenidən yunanlarla türklərin birgə yaşadığı vahid dövlət halına gətirmək üçün səylər olsa da, yunan tərəfin qeyri-konstruktivliyi üzündən bu, baş tutmayıb. 2004-cü ildə BMT-nin baş katibi Kofi Annanın vasitəçiliyi ilə anlaşma mümkün görünürdü. Lakin yunanlar referendumda "Annan planı"nı rədd etdi. Buna rəğmən beynəlxalq müstəvidəki ədalətsizlik bir daha özünü göstərdi və adanın yunan bölümü (Kipr Respublikası adı ilə) təktərəfli qaydada Avropa Birliyinə qəbul edildi. Türklərin "Annan planı"nı qəbul etməsinə baxmayaraq, Şimali Kipr beynəlxalq izolyasiyada qaldı və özgürlük haqqı tanınmadı.



Bununla belə, ŞKTC mövcud şəraitdə və Türkiyənin dəstəyi ilə inkişaf etməkdədir. Son illərdə isə Türk Dövlətləri Təşkilatı (TDT) müstəvisində Kipr türklərinə dəstək özünü göstərir. Əlamətdar haldır ki, bu müstəvidə Azərbaycan da fəal rolunu nümayiş etdirir.

Məlum olduğu kimi, 2022-ci il noyabrın 11-də TDT-nin Səmərqənddə (Özbəkistan) keçirilən zirvə toplantısında ŞKTC təşkilata müşahidəçi üzv qəbul edilib. Bundan sonra ilk olaraq Azərbaycan Prezidenti İlham Əliyev ŞKTC lideri Ersin Tatarı ölkəmizə dəvət etdi. 2023-cü ilin oktyabrında bu səfər əsnasında Bakıda Şimali Kipr günləri də təşkil edildi.

2024-cü ilin iyun ayında ŞKTC Prezidenti Azərbaycanın dəvəti ilə TDT-nin Şuşada keçirilən qeyri-rəsmi zirvə görüşünə qatıldı. "Qarabağda digər türk dövlətlərinin bayraqları ilə yanaşı dalğalanan bayrağımız bütün dünya ictimaiyyətinə verilən açıq-aydın mesaj oldu. Qardaşlığımız Lefkoşadan Bakıya qədər əbədi olacaq" – Ersin Tatar Azərbaycan rəhbərinə təşəkkürünü ifadə edərək belə demişdi.

Bu günlərdə, 6 noyabrda isə ŞKTC lideri TDT-nin Bişkekdə keçirilən zirvə görüşündə iştirak edib. Ersin Tatar çıxışı zamanı türk dövlətlərini ŞKTC-ni tanımağa və TDT-yə tamhüquqlu üzv qəbul etməyə çağırıb.

Cümhuriyyətinin 41 yaşını qeyd edən Şimali Kipr türkləri haqlı olaraq bu yolda dəstəyi öz qardaşlarından gözləyir. Bu xüsusda rəsmi Bakının mövqeyi isə bəllidir. "Azərbaycan olaraq biz Şimali Kipr Türk Cümhuriyyətinin TDT-də tamhüquqlu üzvə çevrilməsini dəstəkləyirik. Şimali Kipr Türk Cümhuriyyəti Türk dünyasının bir parçasıdır" – Azərbaycan rəhbəri bu il iyunun 6-da TÜRKPA-nın Bakıdakı iclasına qatılan nümayəndə heyətləri ilə görüşdə belə deyib.

İndi qalır Türkiyə və Azərbaycanla bərabər digər TDT üzvlərinin də səy birliyi ilə bunu gerçəkləşdirmək...

**Vüqar Orxan**

# Türkiyə Mədəniyyət Yolu Festivalı başa çatıb

## Yeddi ay sürən festivalın son dayanacağı Antalya olub

Türkiyənin mədəni irsini və gəzib-görməli yerlərini daha geniş tanıtmaq və ölkənin marka dəyərinə töhfə vermək məqsədilə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən bu il 16 şəhərdə təşkil edilən Mədəniyyət Yolu Festivalı başa çatıb. Ümumilikdə yeddi ayı əhatə edən festivala son olaraq Türkiyənin ən böyük turistik şəhəri Antalya ev sahibliyi edib.




2–10 noyabr tarixlərində keçirilən Antalya Mədəniyyət Yolu Festivalı da tədbirlərin zənginliyi və rəngarəngliyi ilə diqqət çəkib. Proqram ölkənin mədəniyyət və turizm naziri Mehmet Nuri Ersoyun iştirakı ilə başlayıb. Nazir bildirib ki, Antalya yalnız ölkəmizin deyil, dünyanın ən əhəmiyyətli turizm mərkəzlərindən biridir, bu festival sayəsində onun mədəni dəyərlərinə də diqqəti çəkirik. Türkiyənin ilboyu turizm potensialını tanıtmaq və turistik fəaliyyətləri 365 günə qədər genişləndirmək hədəfini vurğulayan Ersoy Antalyanın bunun üçün bariz örnək olduğunu deyib.

Mədəniyyət Yolunun öncəki dayanacaqlarında olduğu kimi, Antalyada da doqquz gün sürən festival proqramında bütün yaş qruplarına uyğun konsertlər, tamaşalar, sərgilər, əyləncələr, sənət görüşləri – 77 fərqli məkanda gerçəkləşən ümumilikdə 285 tədbir yer alıb.

Antalyanın Konyaaltı çimərlik parkında qurulan əsas səhnədə xalq musiqisindən operaya, populyar musiqidən teatra qədər təqdimatlar olub, məşhur ifaçıların konsertləri keçirilib. Dünyanın ən məşhur rəqs qruplarından olan "Anadolu atəşi"nun Aspendos Antik Teatrında yerli və xarici turistlər qarşısında heyranedici çıxışı da festival proqramına rəng qatıb.

Festival çərçivəsində arxeoloji qazıntı rəhbərləri ilə qədim şəhər turları, həmçinin XX əsrin ünlü rəssamlarından Endi Uorhol və Pablo Pikassonun əsərlərinin nümayişi, Frida Kahlonun şəxsi gündəliklərindən ilhamlanan sərgi də böyük maraq doğurub.

Qeyd edək ki, bu il dördüncüsü təşkil edilən Türkiyə Mədəniyyət Yolu Festivalının əsası 2021-ci ildə qoyulub. Hər ötən il festivalın coğrafiyası genişlənir.

2024-cü ilin aprel ayında başlayan budəfəki festival avqustadək Adana, Şanlıurfa, Bursa, Samsun, Trabzon, Van, Nevşehir və Ərzurumdan keçib. Daha sonra Mədəniyyət Yolunu Çanaqqala, Qaziantep, Ankara, Konya, İstanbul, Diyarbəkir, İzmir və son olaraq Antalya qəbul edib.

Nazir Mehmet Nuri Ersoyun sözlərinə görə, 2025-ci ildə festivalın arenası daha da genişlənəcək. Növbəti ildə Mədəniyyət Yolunun marşrutlarına Malatya, Manisa, Mardin və Kayseri də daxil edilərək şəhər sayı 20-yə çatacaq.

# Ən qısa romana görə Buker mükafatı aldı

İngilis dilində ədəbiyyat üzrə ən nüfuzlu təltif sayılan Buker mükafatının (The Booker Prize) 2024-cü ildə qalibi Samanta Harvi (Samantha Harvey) olub.

49 yaşlı ingilis yazıçının mükafata layiq görülən "Orbit" romanı beynəlxalq kosmik stansiyada olan altı astronavtın həyatından bir günü əks etdirir.

Mükafatın saytında qeyd olunur ki, kitab "hər bir insan həyatının fərdi və kollektiv dəyərini əks etdirərək sizi Yerin əzəmətini müşahidə etməyə dəvət edir".

Bu, Buker mükafatını qazanan ilk kosmos




mövzulu kitabdır və eyni zamanda 136 səhifəlik ən qısa romandır.

Xatırladaq ki, Buker mükafatı 1968-ci ildə Buker-Makkonnel (Booker-McConnel) qida şirkətinin dəstəyi ilə təsis edilib. Mükafatın məbləği 50 min funt-sterlinqdir.

2005-ci ildən isə mükafata əlavə olaraq Beynəlxalq Buker mükafatı (The İnternational Booker Prize) da təsis edilib. Bu mükafat ingilis dilinə tərcümə olunmuş və Böyük Britaniyada çap edilmiş əsərlərə verilir. Onun da məbləği 50 min funt-sterlinqdir və müəllif ilə əsərin tərcüməçisi arasında bərabər bölünür. 2024-cü il üçün bu mükafata almaniyalı yazıçı Cenni Erpenbek və onun "Kairos" romanını ingilis dilinə tərcümə edən Maykl Hofmann layiq görülüblər.

# Royal arxasında İslam Manafovdur

## Ankarada soydaşımızın növbəti konserti

Noyabrın 24-də Azərbaycanın Əməkdar artisti İslam Manafov Ankaradakı "Mostarthaus" sənət və konsert salonunda solo konsertlə çıxış edəcək.



Ustad pianoçunun bu konsert üçün seçdiyi proqram rəngarəngliyi ilə diqqəti çəkir. Qorovist, Buzoni, Qodovski və Tatum kimi musiqi tarixində öz izini qoymuş dahi pianoçuların barokko dövründən XX əsrin caz musiqisinədək fərqli nümunələrin fortepiano üçün populyar işləmələri proqrama daxildir.

Həmin gün İslam Manafovu dinləməyə gələnlər J.P.Ramonun klavesin üçün süitalarından parçaları, K.V.Qlük və C.Qambatinin "Orfey" operasından melodiyanı, İ.S.Baxın "Xoral prelüdiyası" (V.Kempfin təfsirində) əsərini, həmçinin M.Moşkovski, F.Şopen, M.Qlinka, M.Balakirov, C.Gerşvin və S.Raxmaninovun məşhur bəstələrini dinləyə biləcəklər.

**Gülcahan**

## Xronoqraf

**16 noyabr** Beynəlxalq Tolerantlıq Günüdür (International Day for Tolerance). 1995-ci il noyabrın 16-da UNESCO-nun Baş Konfransında "Tolerantlıq prinsipləri Bəyannaməsi" qəbul edilib və bu tarix Beynəlxalq Tolerantlıq Günü elan olunub.

# Tarixdə bu gün

## Olaylar, faktlar (15 – 18 noyabr)



### 147 il əvvəl...

**16 noyabr 1877-ci ildə** Rusiya-Türkiyə müharibəsi gedişində rus qoşunları Qars qalasını ələ keçiriblər. O vaxtdan Rusiyanın nəzarətində qalan Qars 1920-ci ildə Mustafa Kamal paşanın başçılıq etdiyi İstiqlal savaşında işğaldan qurtuldu.

### 105 il əvvəl...

**15 noyabr 1919-cu ildə** Azərbaycan Xalq Cümhuriyyətinin ilk ali təhsil ocağı – Bakı Dövlət Universiteti fəaliyyətə başlayıb. 1919-cu il sentyabrın 1-də Cümhuriyyət Parlamenti bu barədə qərar qəbul etmişdi.

### 80 il əvvəl...



**15 noyabr 1944-cü ildə** Stalinin əmri ilə Gürcüstanın Türkiyə ilə sərhəd bölgəsində yaşayan Ahıska türklərinin deportasiyası başlanıb. Qərar Türkiyənin SSRİ-dəki türk xalqları ilə əlaqələrinin kəsilməsi yönündə aparılan siyasətin davamı idi. Ahıskalılar Özbəkistan, Qazaxıstan və Qırğızıstana köçürüldü. 1989-cu ilin Fərqanə hadisələrindən sonra onların bir hissəsi Azərbaycana pənah gətirdi.

### 41 il əvvəl...

**15 noyabr 1983-cü ildə** Şimali Kipr Türk Cümhuriyyətinin yarandığı elan edilib. 1974-cü ilin "Barış hərəkatı"ndan (yunanların türk əhaliyə qarşı qırğınlarını dayandırmaq üçün adaya Türkiyə hərbi kontingentinin yeridilməsi) sonra Şimali Kipr de-fakto müstəqil olmuşdu. ŞKTC indiyədək yalnız Türkiyə tərəfindən tanınıb.

### 36 il əvvəl...

**17 noyabr 1988-ci ildə** Bakıdakı Lenin (indiki Azadlıq) meydanında ermənilərin Qarabağ iddialarına və azərbaycanlı əhalinin Ermənistandan deportasiyasına etiraz olaraq kütləvi mitinqlər başlayıb. Dekabrın 4-dək davam edən mitinqlər Azərbaycanın tarixinə milli dirçəliş hərəkatı kimi düşdü. 1992-ci ildə 17 noyabr Milli Dirçəliş Günü elan edildi.

### 34 il əvvəl...

**17 noyabr 1990-cı ildə** Naxçıvan MSSR Ali Məclisinin yeni seçilmiş tərkibdə ilk iclası keçirilib. Deputat Heydər Əliyevin sədrliyi ilə keçən iclasda tarixi qərarlar qəbul edilib. Ali Məclisdə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı qaldırılıb, muxtar respublikanın adından "Sovet Sosialist" sözləri çıxarılıb.

### 25 il əvvəl...

**18 noyabr 1999-cu ildə** İstanbuldakı "Çırağan" sarayında Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri layihəsi ilə bağlı tarixi sənədlər imzalanıb. Azərbaycan, Gürcüstan, Türkiyə prezidentləri Heydər Əliyev, Eduard Şevardnadze və Süleyman Dəmirəl hökumətlərarası sazişi, üç ölkənin rəhbəri, habelə ABŞ Prezidenti Bill Klinton və Qazaxıstan Prezidenti Nursultan Nazarbayev layihənin dəstəklənməsinə dair "İstanbul Bəyannaməsi"ni imzalayıblar. 2002-ci ildə inşası başlayan BTC 2006-cı ildə istifadəyə verildi.

### 14 il əvvəl...



**16 noyabr 2010-cu ildə** Azərbaycan xalça sənəti UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin 5-ci sessiyasında (Nayrobi, Keniya) "Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısı"na daxil edilib.

**Hazırladı: V.Orxan**

"Mədəniyyət" qəzeti redaksiyasının kollektivi Azərbaycan Dövlət Kukla Teatrının direktoru Rəşad Əhmədzadəyə qardaşı – tanınmış jurnalist, şair

**Zülfüqar Rüfətoğlunun**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri**

**MƏDƏNİYYƏT**

**Qəzet 1991-ci ilin yanvarından çıxır**

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib,
"Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5086. **Sifariş:** 2638
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641